QARABAĞ AZƏRBAYCANDIR!

## Maraqlara deyil, dəyərlərə əsaslanan Türkiyə-Azərbaycan qardaşlığı!



4

## “Yeni elektrik stansiyası Avropanın enerji təhlükəsizliyinə də növbəti töhfə olacaq”




2



Səs

№ 027 (6710) 14 fevral 2023-cü il. Qiymәti 60 qәpik

**İLHAM ƏLİYEV: “Bu, çox əlamətdar hadisədir, ölkəmizin enerji potensialını böyük dərəcədə gücləndirəcək”**

# Laçın yolu:

## Sülhməramlı və BQXK oyunu




11

## Türk toponimlərinə təcavüz



14

## İşəgötürən işçini hansı halda işdən çıxara bilər?




16

## Xıdır İlyas və ya Xıdır Nəbi mərasimi



5



## Həyət, yoxsa bina evləri zəlzələyə davamlıdır?

6

## 14 fevral, yoxsa 30 iyun



10

***Azərbaycan yenə də növbəti beynəlxalq tədbirə evsahibliyi etdi - fevralın 13-də "Gülüstan" sarayında müstəqillik dövrünün 1280 MVt gücündə ən böyük İstilik Elektrik Stansiyasının təməlqoyma mərasimi keçirilib.İtaliyanın şirkətlər və "Made in Italy" naziri Adolfo Urso, "Ansaldo Energia" şirkətinin prezidenti Cuzeppe Marino və Çinin "Dongfang" şirkətinin baş direktoru Çen Xuacye iştirak edib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları tədbirdə çıxış edərək bildirib ki, bu, çox əlamətdar hadisədir, ölkəmizin enerji potensialını böyük dərəcədə gücləndirəcək, eyni zamanda, Mingəçevirin Azərbaycanın elektroenergetika mərkəzi kimi önəmini daha da artıracaq.***




# "Yeni elektrik stansiyası Avropanın enerji təhlükəsizliyinə də növbəti töhfə olacaq"

## İLHAM ƏLİYEV: "Bu, çox əlamətdar hadisədir, ölkəmizin enerji potensialını böyük dərəcədə gücləndirəcək"

### PREZİDENT İLHAM ƏLİYEV MÖTƏBƏR BEYNƏLXALQ TƏDBİRLƏRİN TƏŞƏBBÜSKARI VƏ TƏŞKİLATÇISI KİMİ TANINIR

Prezident İlham Əliyevin yürütdüyü siyasət nəticəsində dünyada böyük nüfuz qazanan Azərbaycan artıq ən mühüm mövzuların müzakirə olunduğu mötəbər beynəlxalq tədbirlərin təşəbbüskarı və təşkilatçısı kimi tanınır. Xüsusilə, Vətən müharibəsindən sonrakı dövrdə keçirilən beynəlxalq tədbirlərdə işğaldan azad olunan ərazilərimizin dirçəldilməsi və beynəlxalq nəqliyyat dəhlizlərinin mühüm komponentinə çevrilməsi istiqamətində görülən işlərin təbliğinə geniş yer verilir. Bu, həm də Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın Vətən müharibəsində qazandığı Qələbədən dərhal sonra dövlətimizin başçısının Cənubi Qafqazın sülh və əməkdaşlıq regionuna çevrilməsi istiqamətində həyata keçirdiyi ardıcıl və mütərəqqi siyasətə beynəlxalq ictimaiyyətin yüksək diqqətinin və artan marağının əyani ifadəsidir. Bu istiqamətdə görülən işlər dövlətlərlə yanaşı, aparıcı beyin mərkəzləri, tanınmış ekspert və analitiklər tərəfindən də diqqətlə izlənilir. Və bugünkü əlamətdar tədbir - müstəqillik dövrünün 1280 MVt gücündə ən böyük İstilik Elektrik Stansiyasının təməlinin qoyulması, dövlət başçımızın söylədiyi kimi, ölkəmizin enerji potensialını böyük dərəcədə gücləndirəcək, eyni zamanda, Mingəçevirin Azərbaycanın elektroenergetika mərkəzi kimi önəmini daha da artıracaq.



### YENİ ELEKTRİK STANSİYASI ÖLKƏMİZİN ENERJİ POTENSİALINI BÖYÜK DƏRƏCƏDƏ GÜCLƏNDİRƏCƏK

Prezident İlham Əliyev müstəqillik dövrünün ən böyük İstilik Elektrik Stansiyasının təməlqoyma mərasimində çıxışı zamanı bildirib ki, bu, çox əlamətdar hadisədir, ölkəmizin enerji potensialını böyük dərəcədə gücləndirəcək, eyni zamanda, Mingəçevirin Azərbaycanın elektroenergetika mərkəzi kimi önəmini daha da artıracaq.

Onsuz da Mingəçevir hazırda elektroenergetika sahəsində bizim əsas şəhərimizdir. Mingəçevirdə fəaliyyət göstərən elektrik stansiyası bu gün ölkəmizin elektrik enerjisinə ehtiyacının böyük hissəsini ödəyir: "Əminəm ki, yaxın zamanlarda - 2025-ci ildə bu stansiyanın açılışını qeyd edəcəyik". Dövlətimizin başçısı onu da vurğulayıb ki, Mingəçeviri Azərbaycanın və Qafqazın enerji mərkəzinə çevirən Ulu Öndər Heydər Əliyev olub: "Ulu Öndərin rəhbərliyi və təşəbbüsü ilə 1976-cı ildə Mingəçevirdə böyük elektrik stansiyasının təməli qoyulub. Böyük stansiyanın birinci bloku 1981-ci ildə Heydər Əliyevin şəxsi iştirakı ilə açılıb".

Prezident İlham Əliyev çıxışı zamanı söyləyib ki, bu gün Mingəçevir şəhərinin Azərbaycanın və nəinki Azərbaycanın, bütün Qafqazın elektroenergetika mərkəzi kimi yeni dövrü başlayır, təxminən 1300 meqavat gücündə olan stansiya bizim potensialımızı böyük dərəcədə gücləndirəcək. Yeni elektrik stansiyasının Azərbaycanın enerji təhlükəsizliyinə növbəti töhfə olacağını qeyd edən dövlətimizin başçısı deyib: "Yüzlərlə yeni iş yerləri yaranacaq və beləliklə, Azərbaycan öz imkanlarından tam istifadə edərək həm daxili tələbatı ödəyəcək, eyni zamanda, həm elektroenergetika, həm də təbii qaz sahəsində daha böyük addımlar atacaq. Çünki yeni tikiləcək stansiyada şərti yanacağın sərfiyyatı kifayət qədər aşağıdır və bu, imkan verəcək ki, ildə təqribən 800 milyon kubmetr və ya 1 milyard kubmetr qaza qənaət edilsin".

### YENİ ELEKTRİK STANSİYASI AZƏRBAYCANIN DAXİLİ RESURSLARI ÇƏRÇİVƏSİNDƏ İNŞA EDİLƏCƏK

Sözsüz ki, təxminən 1300 meqavat gücündə olan stansiyanın qurulması böyük maliyə tələb edir. Bu məsələyə aydınlıq gətirən Prezident İlham Əliyev bildirib ki, belə bir güclü stansiyanın qurulması Azərbaycanın daxili resursları çərçivəsində inşa ediləcək: "Mənə verilən məlumata görə, stansiyanın ümumi dəyəri təqribən 400 milyon dollara qədər olacaq və elektroenergetika sahəsini yaxından bilən insanlar bilirlər ki, təxminən 1300 meqavat gücündə olan stansiya neçəyə başa gələ bilər. Yəni, bu stansiyaya sərf ediləcək vəsait bir qayda olaraq, bu böyüklükdə stansiyaların tikintisinə sərf olunan vəsaitdən 3-4 dəfə aşağıdır".

Ardı Səh. 3

Əvvəli Səh.2

Dövlətimizin başçısı onu da vurğulayıb ki, yeni tikiləcək elektrik stansiyasının müasir standartlara cavab verməsi nəticəsində karbon qazının miqdarı 2 milyon ton azalacaq və beləliklə, ətraf mühitə də bunun çox böyük faydası olacaq.

# “Yeni elektrik stansiyası Avropanın enerji təhlükəsizliyinə də növbəti töhfə olacaq”

## İLHAM ƏLİYEV: “Bu, çox əlamətdar hadisədir, ölkəmizin enerji potensialını böyük dərəcədə gücləndirəcək”

### SON 20 İLDƏ AZƏRBAYCANDA GENERASİYA GÜCÜ 3400 MEQAVATA BƏRABƏR OLAN 34 ELEKTRİK STANSİYASI İNŞA EDİLİB

Dövlətimizin başçısı müqayisə üçün deyib ki, hazırda Azərbaycanın ümumi generasiya gücü 7200 meqavatdır, onun 3400 meqavatı son 20 ildə yaradılıb: ”Azərbaycanda bütövlükdə elektroenergetika sahəsi son illər ərzində çox sürətlə və uğurla inkişaf edir. Son 20 il ərzində Azərbaycanda 34 elektrik stansiyası inşa olunub və bu stansiyaların generasiya gücü təqribən 3400 meqavata bərabərdir”. ”İndi təsəvvür edin, əgər biz bunu etməsəydik, əgər bu məsələni prioritet seçməsəydik, bu gün bizim iqtisadi və sənaye inkişafı sual altında ola bilərdi. Bu gün biz öz enerji təhlükəsizliyimizi təmin edə bilməzdik. Yəni, bütün işlər vaxtında aparıldı, ardıcıllıqla aparıldı”, - deyə Azərbaycan Prezidenti vurğulayıb. Prezident İlham Əliyev, həmçinin azad olunmuş torpaqlarda görülən işlərdən və bu torpaqlarda ən çox Türkiyə və İtaliya şirkətlərinin fəaliyyətini qeyd edib və bildirib ki, güclü siyasi əlaqələrimiz çox böyük təməldir.






### ŞƏRQİ ZƏNGƏZURDA YARADILAN GENERASİYA GÜCÜ

### İLİN SONUNADƏK 200 MEQAVATA ÇATACAQ

”2025-ci ildə fəaliyyətə başlayacaq yeni stansiya bizim enerji potensialımızı daha da gücləndirəcək. Çünki buna həm Azərbaycanda, həm də Avropada ehtiyac var”, -deyən dövlətimizin başçısı azad edilmiş torpaqlarda bərpa-yenidənqurma işlərinin ilk növbədə, elektroenergetika sahəsindən başladığını qeyd edərək bildirdi ki, artıq 10-dan çox yarımstansiya və 10-dan çox su elektrik stansiyası inşa edilib: ”Artıq biz iki il ərzində Şərqi Zəngəzur bölgəsində 50 meqavatdan çox generasiya gücü yaratdıq və bu rəqəm bu ilin sonuna qədər 200 meqavata çatacaq”.Prezident bildirib ki, bütün stansiyalar ümumi şəbəkəyə qoşulub. Şərqi Zəngəzurun və Qarabağın böyük hidroenergetika potensialı imkan verəcək ki, biz o bölgələrdə 500 meqavata qədər generasiya gücləri yaradaq. Yəni, bu sahə prioritet olaraq qalır.

### ADOLFO URSO

### AĞDAM ŞƏHƏRİNƏ SƏFƏRİNİ XATIRLAYIB: ”Bu dağıntıları heç kəs təsəvvür edə bilmirdi”

İtaliya Respublikasının şirkətlər və ”Made in Italy” naziri Adolfo Urso Prezident İlham Əliyev ilə görüşü zamanı bildirib ki, Azərbaycanda dəfələrlə olmuşam: ”Mən hələ xarici ticarət naziri olduğum zaman ölkənizə səfər etmişdim. Bu gün isə ”Ansaldo” ilə razılaşmanın qeyd olunması mərasiminə qatılmışam”.”Siz ərazilərinizi azad etdikdən bir neçə gün sonra İtaliyanın parlament nümayəndə heyətinin tərkibində ölkənizə səfər etdim. O vaxt həmin yerlərə baş çəkdik. Ağdam şəhərinə getdiyimi, məscidin minarəsindən çəkdiklərimi xatırlayıram. İtaliyanın informasiya kanallarında onları nümayiş etdirdim. Bu səfər məndə böyük hisslər doğurdu. Bu dağıntıları heç kəs təsəvvür edə bilmirdi”, - deyə Adolfo Urso bildirib.

Qeyd edək ki, mərasimdə yeni inşa olunacaq İstilik Elektrik Stansiyası barədə videoçarx nümayiş etdirildi. Daha sonra Azərbaycan Prezidenti İlham Əliyev və İtaliya Respublikasının şirkətlər və ”Made in Italy” naziri Adolfo Urso stansiyanın təməlini qoydular.

**RƏFİQƏ HÜSEYNOVA**

# “İtaliya-Azərbaycan əlaqələri strateji məna daşıyır”

## Prezident İlham Əliyev İtaliyanın şirkətlər və "Made in Italy" nazirini qəbul edib

**Azərbaycan Prezidenti İlham Əliyev fevralın 13-də 1280 MVt gücündə ən böyük İstilik Elektrik Stansiyasının təməlqoyma mərasimində iştirak edən İtaliya Respublikasının şirkətlər və ”Made in Italy” naziri Adolfo Ursonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Görüşdə çıxış edən Prezident İlham Əliyev diqqətə çatdırıb ki, İtaliya-Azərbaycan əlaqələri strateji məna daşıyır və biz çalışırıq ki, bu strateji tərəfdaşlıq çərçivələrini daha da genişləndirək:**

”İlk növbədə, siyasi əlaqələrimiz çox yüksək səviyyədədir. Siz də öz çıxışınızda qeyd etdiniz ki, Prezident Mattarellanın Azərbaycana səfəri, mənim İtaliyaya səfərlərim bu əlaqələri daha da gücləndirir. Əlbəttə ki, yanvarın 11-dən bu günə qədər İtaliya hökumətinin üç nazirinin Azərbaycana gəlməsi çox önəmli və deyə bilərəm ki, fövqəladə bir hadisədir. Bu səfərlər zamanı biz həm hərbi, hərbi-texniki, energetika və bütövlükdə investisiya, ticarət sahələrində əməkdaşlığı müzakirə etmişik və edəcəyik.

Güclü siyasi əlaqələrimiz çox böyük təməldir. Neft-qaz və hazırda elektroenergetika layihələri bu təməli böyük dərəcədə gücləndirdi. Eyni zamanda, biz istəyirik ki, ticarət əlaqələri daha da şaxəli olsun. Bilirsiniz ki, İtaliya-Azərbaycan Universitetinin inşa edilməsi prosesi sürətlə gedir, 5 İtaliya universiteti bizimlə artıq tərəfdaşdır. Eyni zamanda, azad olunmuş torpaqlarda ən çox iş görən şirkətlər Türkiyəni və İtaliyanı təmsil edirlər.



Onu da bildirməliyəm, İtaliya-Azərbaycan əlaqələri o qədər dərin və səmimidir ki, biz özümüz üçün ən vacib saydığımız layihələri məhz İtaliya şirkətlərinə həvalə etmişik. Məsələn, Bakı şəhərində, azad edilmiş bir çox şəhərlərdə Qələbə və İşğal muzeyləri İtaliya şirkətləri tərəfindən yaradılır. Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində dağılmış 3 məscid və yeni inşa edilən 1 məscid İtaliya şirkətləri tərəfindən bərpa olunur və inşa edilir. Yəni, bütün digər sahələrlə yanaşı, qeyd etdiyim bu layihələr bizim üçün xüsusi əhəmiyyət daşıyır. Çünki bu, bizim həm tarixi keçmişimizdir, eyni zamanda, Qələbəni əks etdirən yeni rəmzlər olacaq.”

Nazir Adolfo Urso:

”Təşəkkür edirəm cənab Prezident, qəbula görə minnətdarlığımı bildirirəm. Sizin ölkənizdə dəfələrlə olmuşam. Mən hələ xarici ticarət naziri olduğum zaman Azərbaycana səfər etmişdim. Bu gün isə ”Ansaldo” ilə razılaşmanın qeyd olunması mərasiminə qatılmışam. Siz ərazilərinizi azad etdikdən bir neçə gün sonra İtaliyanın parlament nümayəndə heyətinin tərkibində ölkənizə səfər etdim. O vaxt həmin yerlərə baş çəkdik. Ağdam şəhərinə getdiyimi, məscidin minarəsindən çəkdiklərimi xatırlayıram. İtaliyanın informasiya kanallarında onları nümayiş etdirdim. Bu səfər məndə böyük hisslər doğurdu. Bu dağıntıları heç kəs təsəvvür edə bilmirdi.”

Görüşdə hökumətlərarası komissiyanın fəaliyyətinin vacibliyi qeyd edilib, bu komissiyanın iclasının tezliklə keçirilməsinin qarşıya qoyulmuş vəzifələrin icrası baxımından önəmi vurğulanıb. Söhbət zamanı Azərbaycanla İtaliya arasında enerji sahəsi ilə yanaşı, bərpaolunan enerji, kənd təsərrüfatı texnikası, əczaçılıq sənayesi, elm, təhsil, mədəniyyət və digər sahələrdə əməkdaşlıq, həmçinin işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa və quruculuq işləri barədə fikir mübadiləsi aparılıb. Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrin inkişafına İtaliyanın həmişə verdiyi dəstək yüksək qiymətləndirilib və Avropa İttifaqı ölkələri arasında İtaliyanın Azərbaycanın mühüm tərəfdaşı olduğu vurğulanıb.

# Maraqlara deyil, dəyərlərə əsaslanan Türkiyə-Azərbaycan qardaşlığı!

**Qardaş Türkiyədə fevralın 6-da baş verən zəlzələdən 8 gün ötür. Zəlzələnin ilk günündən bu günə kimi, qardaş Türk xalqı kimi, Azərbaycan xalqı da böyük hüzün, kədər içindədir. Çünki Mərkəzi Kahramanmaraş olmaqla, 10 vilayətdə baş verən zəlzələlər nəticəsində minlərlə insan həyatını itirib, on minlərlə insan yaralanıb və dağıntılar altında qalıb və hələ də onların taleləri hələ də məlum deyil.**

Azərbaycan Prezidenti İlham Əliyev fevralın 6-da Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edərək, Türkiyədə baş vermiş zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və dağıntılarla bağlı xəbərin Azərbaycanı çox sarsıtdığını bildirdi. Prezident İlham Əliyev Türkiyə xalqına şəxsən öz adından və xalqımız adından başsağlığı çatdırdı, yaralananların tezliklə şəfa tapmasını dilədiyini bildirdi. Azərbaycan Prezidenti onu da vurğuladı ki, Azərbaycan və Türkiyə hər zaman bir-birinin yanındadır. Bu bir daha iki qardaş ölkənin liderlərinin həmrəyliyinin, "bir millət, iki dövlət" olduğunun nümayişi idi. Həmçinin, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva da sosial mediada paylaşım edərək Türkiyənin cənub-şərqində baş vermiş güclü zəlzələnin nəticələri barədə xəbərləri dərin kədər hissi ilə qarşıladığını bildirdi. Faciə zamanı həlak olanlara rəhmət diləyən, onların doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verən, yaralananların və xəsarət alanların tezliklə şəfa tapmasını arzulayan Mehriban xanım Əliyeva "Türkiyə xalqının kədəri bizim kədərimizdir. Uca Tanrıdan bütün Türkiyə xalqına güc və səbir diləyirəm!", - deyə qardaş Türkiyəyə dəstəyini ifadə etdi.



**RƏCƏB TAYYİB ƏRDOĞAN:**
*"Biz tək bu gün deyil, ölənədək birlikdə olacağıq. Bir millət, iki dövlət olaraq yola davam edəcəyik!"*

**İLHAM ƏLİYEV:**
*"Bu, böyük fəlakətdir və ölkəmiz Türkiyənin bu dərdinə şərik çıxır, Azərbaycan və Türkiyə hər zaman bir-birinin yanındadır"*











Eyni zamanda, Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyədə baş verən dəhşətli zəlzələ ilə əlaqədar fevralın 8-də Türkiyə Respublikasının ölkəmizdəki səfirliyində olması, başsağlığı verməsi əsl qardaşlıq nümunəsidir. Dövlət başçımızın da söylədiyi kimi, Azərbaycan hər zaman olduğu kimi, ilk dəqiqələrdən qardaş Türkiyənin yanında idi və öz dəstəyimizi, öz həmrəyliyimizi həmişə olduğu kimi nümayiş etdiririk və belə də olacaq!

Türkiyənin zəlzələ ilə əlaqədar dördüncü dərəcəli həyəcan elanından sonra beynəlxalq müstəvidə yardım təklifləri gələrkən tbii ki, yenə ilk köməyə gedən qardaş, dost olaq Azərbaycan oldu. Prezident İlham Əliyevin tapşırığına əsasən, Türkiyədə baş vermiş güclü zəlzələnin fəsadlarının aradan qaldırılması üçün bütün tədbirlər görüldü. Dövlət başçısı bildirdi ki, əgər bu acı faciənin fəsadlarının aradan qaldırılmasına bir balaca kömək edə bilmişiksə, bunu özümüz üçün şərəf bilirik: "Hər zaman Türkiyə də bizim yanımızdadır, yaxşı günlərdə, çətin günlərdə".

### TÜRKİYƏ-AZƏRBAYCAN ARTIQ BİR YUMRUQDUR, BİR ÜRƏKDİR, BİR CANDIR

Bəli, bu gün dövlətimizin başçısı Türkiyənin Azərbaycandakı səfirliyində olarkən bildirdi ki, biz bütün dünyaya bir daha nümayiş etdiririk ki, təkcə dövlətlərarası səviyyədə deyil, dövlət başçıları səviyyəsində deyil, insanlar səviyyəsində də əsl qardaşlıq əlaqələri mövcuddur və bu da təbiidir.

"Əminəm ki, Türkiyə bu acı sınaqdan da şərəflə çıxacaq, bunu da aşacaq. Ancaq bu, inanılmaz dərəcədə böyük faciədir", - deyən dövlət başçımız söyləyib ki, hər bir qurtarılan can elə bil ki, bizə bir dünyanı bağışlayır: "Yenə də deyirəm, həm Türkiyədən, həm Azərbaycandan, həm digər ölkələrdən gələn xilasedicilər çox böyük iş görürlər. Əlbəttə ki, burada əsas yük və mənəvi yük Türkiyə hökumətinin üzərinə düşür. Mənim qardaşım hörmətli Prezident dərhal bütün göstərişləri verdi, bütün nazirləri fəlakət zonalarına göndərmişdir və tam əminəm ki, güclü və qüdrətli Türkiyə dövləti bu çətinliyi də aşacaq və tezliklə qurtarma, arama işlərinin aparılmasında öz səylərini davam etdirəcək. Ondan sonra təbii ki, bərpa işlərinə də biz qoşulmağa hazırıq. Yəni, Türkiyə-Azərbaycan artıq bir yumruqdur, bir ürəkdir, bir candır. Biz belə görürük, Türkiyə və Azərbaycan vətəndaşları da belə görürlər. Bu ağır günlərdə Türkiyənin yanında olmaq bizim üçün böyük şərəfdir".

### RƏCƏB TAYYİB ƏRDOĞAN: "44 günlük müharibədə də, bu gün də Azərbaycanla birgəyik"

Bu gün zəlzələ bölgəsinə səfər edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Qazintep hava limanında Birinci vitse-rezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın göstərişi əsasında qardaş ölkəyə humanitar yardım aparan Fond əməkdaşları ilə görüşüb. Baş vermiş faciə ilə əlaqədar Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın başsağlığını çatdıran Fondun nümayəndəsi Elvin Aslanov bu günlərdə bütün Azərbaycan xalqının, ölkənin bütün təşkilatlarının qardaş ölkə üçün zəruri yardımların göstərilməsi naminə səfərbər olduğunu bildirib.

Azərbaycan dövləti və xalqının Türkiyədəki faciə ətrafında səfərbər olmasına görə təşəkkürünü bildirən Rəcəb Tayyib Ərdoğan deyib: "İlham qardaşıma, Mehriban bacıma öz adımdan, millətim adımdan çox təşəkkür edirəm!".

### BİR YERDƏYİK, BİRLİYİMİZ SARSILMAZ VƏ ƏBƏDİDİR

Bəli, bu gün Türkiyə və Azərbaycan liderlərinin qardaşlığı, iki dövlət bir yumruq həmrəyliyi birliyi, dar gündə, xoş gündə bir yerdə olması sarsılmaz birliyinin əyani təzahürüdür. Çünki Azərbaycan və Türkiyə münasibətləri maraqlara deyil, dəyərlərə əsaslanır. Bu sərhəd tanımayan qardaşlıq birliyidir. Və bu gün baş verən zəlzələ zamanı Azərbaycan dövləti və xalqı bir daha bütün dünyaya nümayiş etdirdi ki, bu sarsılmaz qardaşlıq birliyi təkcə dövlətlərarası səviyyədə deyil, dövlət başçıları səviyyəsində deyil, insanlar səviyyəsində də əsl qardaşlıq əlaqələrinin təsdiqidir və bu bütün dünya üçün bir nümunədir. Öz maraqları üçün min oyunlar oynayan, hər cür addımlara gedən, mənəviyyatsızlıqları sərhəd tanımayan xarici siyasi dairələr qarşısına Azərbaycan və Türkiyə Prezidentləri bu dəyərlərin gücü ilə çıxırlar, onlara öz yerlərini göstərirlər. Bu iki liderin uca şəxsiyyətinə, mənliyinə, mənəviyyatına, dəyərlərə bağlılığına yaraşan da elə məhz budur!

Bu gün isə, Türkiyə xalqının bu çətin, ağır günündə Azərbaycan dövləti və xalqı bir yumruq kimi birlik nümayiş etdirərək ilk yardıma yetişən ölkə, qardaşını dar gündə qoymayan Azərbaycan dövləti və xalqı oldu. Və bu gün Türkiyə xalqı böyükdən kiçiyə kimi bir daha Azərbaycan dövlətinin, xalqının sarsılmaz birliyini, qardaşlığını gördü. Başqa cür də ola bilməz, bu, bizim qardaşlıq borcumuzdur. Çünki biz Türkiyə ilə bir millət, iki dövlətik, sevincimiz də, kədərimiz də eynidir. Azərbaycan xalqı olaraq hər zaman qardaş Türkiyənin yanındadır və bundan sonra da olacaq. Çünki Azərbaycan-Türkiyə birliyi əbədi və sarsılmazdır.

***RƏFİQƏ KAMALQIZI***

# Xıdır İlyas və ya Xıdır Nəbi mərasimi







**XIDIR NƏBİ, XAN İLYAS, AÇDI ÇİÇƏK, GƏLDİ YAZ**

Qədim tarixə malik olan və el arasında geniş yayılmış bayramlardan biri də Xıdır İlyas və ya Xıdır Nəbi adlandırılan mərasimdir. Bu bayram bir-birindən cüzi fərqlərlə demək olar ki, Azərbaycanın bütün bölgələrində keçirilir. Xıdır İlyas adətən, təbiətin oyanması, otların cücərməsi, axar suyun təmizlənməsi və s. təbii proseslərlə müşayiət edilir. Tədqiqatlarda Xıdır Nəbi bir şəxsiyyət olaraq "suyun, külək və havanın himayəçisi" kimi təqdim olunur. Xızır peyğəmbərlə eyniləşdirilir. Xalqımız tarix boyu öz adət-ənələrini qoruyub saxlamış, ən çətin zamanlarda belə milli dəyərlərinə sahib çıxmışdır. Çoxəsrlik tarixində özünəməxsusluğu qoruyub saxlaya bilmişdir. Bu gün həmin dəyərlərin fonunda Azərbaycan xalqı öz tarixi keçmişinə söykənərək milli-mənəvi dəyərləri, ənənələri, əxlaqi keyfiyyətləri ilə dünya xalqları arasında seçilir və diqqəti çəkir. Əlbəttə ki, hər bir xalqın özünəməxsus dəyərləri, keyfiyyətləri mövcuddur və onları yaşatmağa çalışır. Zəngin irsə malik olan Azərbaycanda keçirilən bayramlar da xalqın genetik yaddaşından süzülüb gələrək, onun milli-mənəvi dəyərlərini əks etdirir. Azərbaycan mənəvi mədəniyyətinin tərkib hissəsi olan bayramlar xalqımızın həyatında mühüm yer tutur. Qədim tarixi özündə ehtiva edən Azərbaycan xalqının məişətində mövcud olan bir çox bayramların tarixi qədimdir və onların başlanğıcı eramızdan əvvəlki minilliklərə söykənir. Məlumdur ki, bayramlar öz məzmununa görə dini və dünyəvi bayramlara bölünür. Azərbaycanda Ramazan bayramı, Qurban bayramı kimi dini bayramlarla yanaşı, dünya xalqları ilə bərabər olaraq qeyd etdiyi bayramlara da təsadüf olunur.

Qədim tarixə malik olan və el arasında geniş yayılmış bayramlardan olan Xıdır İlyas və ya Xıdır Nəbi adlandırılan bayram Azərbaycanda Xızır Nəbi bayramı, Təbriz ətrafındakı Qızılbaşlar zümrəsində isə yenə də Xızır Nəbi bayramı adı ilə tanınır. Bu bayram Azərbaycanın demək olar ki, bütün bölgələrində keçirilir. Naxçıvanda, eləcə də Laçın, Qubadlı, Zəngilan, Kəlbəcər, Cəbrayıl və Füzuli rayonlarında təntənəli şəkildə qeyd olunub. Mənbələrdə göstərilir ki, rus tədqiqatçısı T.F.Aristova Laçın, Qubadlı və Zəngilan rayonlarında bu bayramın qeyd edilməsi prosesləri haqqında maraqlı məlumat verir. Qeyd edir ki, qışın ortalarında keçirilən bu bayramda azərbaycanlı qadınlar ailəsinin salamatlığı üçün sacda qovurğa qovurar, çay və bulaq kənarında müxtəlif rənglərlə bir neçə yumurta qoyaraq niyyət edirdilər. Ertəsi gün yumurtalara baxırdılar. Əgər yumurta qırmızı rəngə boyanmışdırsa yaxşı, qara boyanırdısa pis əlamət yozurdular.

Xıdır İlyas adətən, təbiətin oyanması, otların cücərməsi, axar suyun təmizlənməsi və s. təbii proseslərlə müşayiət edilir. Tədqiqatlarda Xıdır Nəbi bir şəxsiyyət olaraq "suyun, külək və havanın himayəçisi" kimi təqdim olunur. Qeyd edim ki, Xızır Nəbi bayramı Novruz bayramından əvvəl keçirilir. Bu bayramın keçirilməsi kiçik çilləyə təsadüf edilir. Bayramın tarixi günü ilə bağlı tədqiqatçılar, folklorşünas alimlər müxtəlif fikirlər irəli sürürlər. Bəzi mənbələrdə həmin bayramın kiçik çillənin qurtarmasına 2-5 gün qalmış, bəzilərində həmin mərasimin kiçik çillənin onuncu günündə, bəzilərində isə böyük çillədən dörd və kiçik çillədən üç gün olmaqla yeddi gün ərizində keçirildiyinə təsadüf edirik. Azərbaycanın xalq yazıçısı Əzizə Cəfərzadə isə "Xıdır İlyas" mərasiminin kiçik çillənin qurtardığı son üç gündə keçirildiyini göstərir. Başqa bir mənbədə isə Xıdır Nəbi bayramının fevralın 12-dən 20-dək keçirildiyi qeyd olunur.

Xoşbəxtlik, ruzi, arzuların simvolu olaraq qeyd olunan bayramın kiçik çillənin çıxması münasibətilə keçirilməsi həm də qədim əkinçilik görüşləri ilə əlaqədardır.

Xıdır İlyas mərasiminə xüsusi hazırlaşırdılar. Xalq arasında belə inam vardır ki, əgər Xıdır Nəbi Boz atında gələrkən evlərdə bayram əhval-ruhiyyəsi görməzsə küsüb gedirdi. Xıdırın küsüb getməsi isə ruzi-bərəkətin yox olmasına səbəb olar, baharın gəlməsi gecikər. Buna görə də hələ kiçik çillənin birinci günündən başlayaraq bayram tədarükü görülürdü.

Üç gündən ibarət olan Xıdır Nəbi bayramının birinci günü torpaq tərif olunardı. Torpağın üstündə od qalanardı ki, torpağın nəfəsi qızınsın. Bağlar təmizlənər, çör-çöp, xəzəl yığılıb yandırılardı. Bayramın ikinci günü evdəki hər öküzün adına üç duzsuz kömbə bişirilib öküzlərin qarnının altından diyirləyər və oxuyardılar:

**Xıdır Nəbi, xan İlyas,**
**Açdı çiçək, gəldi yaz.**
**Mən Xıdırın quluyam,**
**Boz atının çuluyam.**

Bayramın üçüncü günü cütcü və əkinçinin şəxsində torpağı becərən, şum şumlayan, əkin əkən əməkçilər tərif olunardı. Boz at üzərində gələcək Xıdır Nəbinin əlində od olacağı güman edilərdi. Onun torpağı isidəcəyi, odla yanaşı günəş və suyun adamlara sağlamlıq gətirəcəyi düşünülərdi. Mərasimdə əkinçi, cütçü və sayaçı nəğmələri oxunar, "Xıdır Nəbi"yə nəğmələr, şeirlər qoşulardı. Bayramın hər üç günündə cavanlar əkin yerlərindən keçib Xıdır Nəbini axtarmağa gedərdilər. Onlara "Xıdırçı" deyərmişlər. Xıdırçılar hava işıqlanmazdan əvvəl əllərində şam Xıdırın dalınca gedər və nəğmələr oxuyardılar.

## XIDIR NƏBİ MƏRASİMİ MİFİK OBRAZIN MÖVCUDLUĞUNU YADDAŞLARDA MÖHKƏMLƏNDİRİR

Bayramın atributu isə qovrulmuş buğda və qovuddur. Bundan başqa digər paxlalı bitkilər, çərəz də mütləq süfrəyə qoyulmalıdır. Xəşil də ki, öz qaydası ilə. Ümumiyyətlə, qışda keçirilən bayramların hamısında bu xörək növü hazırlanır. Bayramda daha çox sevinən uşaqlardır. Xıdır Nəbi günü, Novruzda olduğu kimi, uşaqlar qapı-qapı gəzib papaq atırlar. Axşam şər qarışanda isə cavanlar və uşaqlar dəstələnib evləri qapı-qapı gəzərək "Xıdır" nəğməsini oxuyar və bayram payı yığardılar. Hansı qapıdan içəri girsələr, əvvəlcə dəstədən bir adam irəli çıxıb avazla oxuyardılar:

**Mən Xıdırın quluyam,**
**Göy atının çuluyam.**
**Ağzının arpasıyam**
**Ayağının nalıyam.**

Toplanan pay isə bərabər şəkildə bölünürdü. Bundan başqa həmin gün yükün altına qovud qoyarlar. Xalq inanclarına görə, əfsanəvi Xızır Peyğəmbər gəlib bu qovuda toxunarsa, həmin il o evdə ruzi-bərəkət olar. Bunu bilmək üçünsə ev sahibi səhər ertədən qovudun üzərində Xızırın atının izini axtarır. Hər hansı bir işarə varsa, deməli, niyyəti baş tutub.

Azərbaycan folklorunda Xızırla bağlı inamlar da sayca üstünlük təşkil edir. "Xıdır payı"ndan ertəsi günü yağla kömbə bişirər, qovut çəkilər və dəstənin üzvləri arasında bölünərdi. "Xıdır Nəbi" bayramında yumurta döyüşdürülürdü. Hansı yumurta sınsa, sahibi uduzmuş hesab olunurdu. Bu bayramda qapıpusma mərasimi də keçirilirdi. Qulaqları barmaqla yumaraq niyyət tutur və "filan evə qapı pusmağa gedirəm"- deyilərdi. Həmin qapıya çatanda qulağı açar, niyyəti eşitdiyi ilk sözlə sınayardılar. Qovurğanı məcməyiyə yayıb boş otaqda səhərədək saxlayardılar. Əgər səhər qovurğanın üzərində əl izləri görünsəydi, deməli, Xıdır İlyas o evə gəlmişdi, həmin il ailə üçün xoşbəxt il olardı.

Bütün bunlar göstərir ki, Xıdır Nəbi mərasimi xalq bayramı olmaqla yanaşı, həm də mifik bir obrazın - Xıdır İlyasın mövcudluğunu, mərasimlərdə şəxsən iştirak etdiyi barədə fikri yaddaşlarda möhkəmləndirir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# "Azərbaycan sona qədər Türkiyənin yanında olacaq"



"Türkiyədə baş vermiş dəhşətli zəlzələ son 100 ilin ən böyük təbii fəlakətidir. Zəlzələ Türkiyənin 10 vilayətində böyük dağıntılar etmiş, hələ ki, 30 minə yaxın insan ölmüş, 100 minə yaxın insan xəsarət almış, 13 milyona yaxın insanı isə evsiz qoymuşdur. Təəssüf ki, ölənlərin sayı hər gün artmaqdadır və sonda nə qədər insanın dağıntılar altından sağ çıxacağı məlum deyil". Bu fikirləri Milli Məclisin deputatı Azər Badamov "Səs" qəzetinə açıqlamasında bildirdi.

Onun sözlərinə görə, Azərbaycan zəlzələnin baş verdiyi ilk saatlarda Türkiyənin yanında oldu: "Prezidentimiz Türkiyənin Prezidentinə telefon zəngi etdi, başsağlığı verməklə birliyimizi nümayiş etdirdi. Türkiyədən soruşulmadan dərhal yardımların, xilasedicilərin göndərilməsinə başlandı. Dövlətimizin yardım kampaniyasına bütün Azərbaycan səfərbər olunaraq qoşuldu. İnsanlar kimin nəyə gücü çatırsa götürüb yardımların göndərilməsi üçün müəyyən olunmuş məntəqələrə axışmağa başladılar. Deyirlər dost və qardaş dar gündə tanınar. Bu gün dövlətimiz və xalqımız acınız acımız, kədəriniz kədərimiz deyərək bir millət olduğunu nümayiş etdirir. Təbii ki, Azərbaycan sona qədər Türkiyənin yanında olacaqdır. Həm xilasedici əməliyyatlarda, həm də yardımları davamlı şəkildə göndərməklə sona qədər dəstəyimiz ifadə ediləcəkdir. Bu, bir daha sübut etdi ki, Türkiyə Azərbaycan bir millət, iki dövlətdir".

***Gülyanə***

# Həyət, yoxsa bina evləri zəlzələyə davamlıdır?

**Bir evin məqsədyönlülüyü onun bizə qazandırdığı rahatlığına və funksionallığına söykənməlidir. Belə olan halda yeni ev sahibi olmaq istəyən hər kəsin düşündüyü bir sual var: "Həyət evi yaxşıdır, yoxsa mənzil?"**

Günümüzdə həyət evlərinə maraq daha da artıb. Xüsusilə qardaş Türkiyədə və dünyada baş verən dəhşətli zəlzələlərdən sonra insanlar bina evindən qorxur. Bu da normal olaraq həyət evlərində qiymət artımına gətirib çıxarır. Bəs, zəlzələ zamanı həyət, yoxsa bina evi daha təhlükəsizdir?

SİA mövzu ilə bağlı araşdırma aparıb.

* Təbiətlə daim bir vəhdət şəklində olacaq, həmçinin, təmiz hava ala biləcəyiniz, səs-küysüz sağlam bir həyata qovuşacaqsınız.



* Evinizdə yarada biləcəyiniz şəxsi kinoteatr sayəsində sevdiklərinizlə birgə film gecələrindən maksimum zövq ala biləcəksiniz.

* Avtomobilinizi vaxt itirmədən park edə biləcəyiniz bir 2 yerlik qarajla aylıq xərclərdən də xilas olacaqsınız.

* İstədiyiniz bitkiləri əkib-biçə biləcək və onların qayğısına qalaraq, təbiətlə bir bütün ola biləcəksiniz.

* Dənizə getməyə ehtiyac qalmayacaq, 4x8 skimmer tipli hovuz və hovuzətrafı zonada əyləncənizi qura biləcəksiniz. Bir sözlə, dənizi evinizə gətirəcəksiniz!



* Tüstü və qoxu sizi narahat etmədən öz əllərinizlə ləziz yeməklər bişirə biləcəyiniz manqalxana və həmin yeməkləri sevdiklərinizlə birgə nuş edə biləcəyiniz terrasa sahib olacaqsınız.

* Sevimli bir ev heyvanı sahiblənmək istədiyinizdə artıq qonşularınıza görə narahat olmayacaqsınız.

Həqiqətən müstəqil evdə yaşamağı sevən insanlar üçün həyət evlərinin avantajlarını saymaqla bitməz. Əvvəla, otaqların təyinatını hər hansı bir maneə olmadan tamamilə öz istəklərinizə və zövqünüzə uyğun şəkildə dizayn edə biləcəksiniz.

Həyət, yaxud bağ evlərini insanlar daha çox şəhərdən kənarda yay boyu dincəlmək üçün istəyir. Daha çox Bakı kəndlərində imkanlı şəxslərin həyət (bağ) evləri mövcuddur. Şəhərdə olan həyət evlərinin əksəriyyəti isə orta- kasıb təbəqəyə məxsusdur. Lakin etiraf edək ki, zəlzələ üçün ən təhlükəsiz variant bu evlərdir. Həmçinin, həyət evində rahat dincəlmək, kiçik miqyasda da olsa əkinbiçinlə məşğul olmaq mümkündür. Bundan əlavə öz həyətində əlavə bir ev də tikmək şansın olur.

Bir də var ki, rayon və kəndlərdə yaşayan insanların həyət evləri. Təbii ki, bu, Bakı və ətraf ərazilərdə olan evlərdən çox fərqli və böyükdür.









Binada isə bunların heç biri mümkün deyil. Həm zəlzələdə bina çox təhlükəlidir, həm yayda dincəlmək olmur, həm də sahəsi daha kiçik olur. Bundan əlavə, bina evində xüsusi məsuliyyət var.

Bina evi, yəni fərdi yaşayış sahəsi sizə aid olsa da, ümumiyyətlə əmlakın bir hissəsinə sahibsiniz. Yəni mənzil alanda liftdən tutmuş bağçaya kimi başqaları ilə paylaşdığınız bir sahədə ortaq olursunuz.

Bununla bağlı bəzi öhdəlikləri də öz üzərinizə götürməlisiniz. Siz həm də mənzil haqları və bağçaya qulluq kimi xərclərdə tərəfdaş olacaqsınız. Bağda və ya hovuzda vaxt keçirmək istədiyiniz zaman, digər mülk sahibləri ilə bu əraziləri bölüşməlisiniz.

Həyət, yaxud bağ evi alanda həm ev, həm də bağ sizə məxsusdur. Həyət evi, mənzildən fərqli olaraq sahibinə daha geniş yaşayış sahəsi təklif edir. Bununla belə, bağın və ya hovuzun baxımı yalnız sizə aid olduğundan, bu yerlərin saxlanması üçün daha çox büdcə ayırmalı ola bilərsiniz. Təbii ki, əgər xüsusi köməkçiniz yoxdursa.



Mənzillər adətən çoxmərtəbəli olur. Bu gün də əksər mənzillərdə bir mərtəbədə birdən çox yaşayış yeri ola bilər. Bu da daha kiçik kvadratmetrlər deməkdir. Həmçinin, mənzillərdə saxlama yeri və qaraj kimi imkanlar daha məhduddur. Həyət evi isə sizə geniş yaşayış sahəsi təklif edir.

Adətən iki mərtəbəli olan həyət evi istədiyiniz kimi dizayn edə bilərsiniz. Mətbəxinizi böyütmək istədiyiniz zaman divarları qıra və ya yataq otağınızı istirahət otağı ilə birləşdirə bilərsiniz. Bunun üçün heç kimin icazəsinə ehtiyacınız yoxdur.

Bina evində dostlarınızla təşkil etdiyiniz ev şənliyində qonşu mənzildə qonşunun uşağının səsi sizi və qonşunuzu narahat edə bilər. Yaxud axşam saatlarında tozsoran işlətmək və ya qab yumaq qonşularınızı qıcıqlandıra bilər.

**Daşınmaz əmlak üzrə ekspert Anar Nəsirov:** "Bu günlərdə qardaş ölkədə baş vermiş təbii fəlakət nəticəsində zəlzələnin baş verməsi bütün dünyanı, o cümlədən Azərbaycan xalqını dərindən kədərləndirdi. Uca Allahdan qardaş ölkədə zəlzələ nəticəsində dünyasını dəyişmiş bütün insanlara Allahdan rəhmət, yaralılarımıza isə şəfa diləyirəm.



Mən deyə bilərəm ki, bu zəlzələ son 100 ilin ən faciəli və ən çox dağıntılara səbəb olan hadisəsidir. Zəlzələnin baş verməsi və bu qədər insanın həyatını itirməsi qardaş ölkə ilə yanaşı bizim ölkəmizdə də, bir çox sualları ortaya çıxarır. Son illərdə Bakı şəhərində və ətraf qəsəbələrdə tikilən yeni bina evləri zəlzələyə nə qədər davamlıdır? Baş verən zəlzələ insanları bu barədə dərin düşünməyə məcbur etti.

Bu fəlakətin baş verməsi nəinki Azərbaycanda, bir çox ölkələrdə, hətta dünyada belə hündür mərtəbəli binalarda yaşayan insanlar arasında da bir xof yaratdığı görünür. Allah uzaq etsin, belə bir zəlzələ gözlənilməsə də, insanlar bu duruma görə narahatlıq keçirir və həyət tipli evlərin daha güvənli olması barədə bir fikir formalaşdırdı.

Mənim fikirimcə, Azərbaycanda həyət evlərinin alqı- satqısında olan durğunluq indi əksinə olacaq və insanlarda hündür mərtəbəli binalardan çox həyət evlərinə marağın artmasına səbəb olacaq. Zəlzələdən öncə Azərbaycanda həyət tipli evlərə və torpaq sahələrinə maraq o qədər də yox idi. Alıcıların haradasa 60 faizi daha çox yeni tikili binalarda olan mənzillərə maraq göstərirdilər, indi isə tam əksini görəcəyik. Çünki qardaş ölkədə baş vermiş fəlakət insanlarda psixoloji travmaya səbəb oldu və yaşadığı mənzilin nə dərəcədə güvənli olması onların beynində bir sorğu kimi qaldı. Belə olan halda alıcıların həyət tipli evlərə daha çox maraqlarının artmasına və həmin evlərin bundan sonra daha çox alıcısının olmasına səbəb olacaq.

Bu fəlakətdən sonra Bakı və ətraf qəsəbələrdə həyət tipli evlərin və torpaq sahələrinin qiymətlərində artımın olması gözlənilir. Mənim bir mütəxəssis kimi fikrim budur. Bu hələ təkcə Azərbaycanda yox, bir çox ölkədə, o cümlədən qardaş ölkə Türkiyədə də belə olacaq.

Əvvəllər tikilən binaların tikintisini görmədiyim üçün deyə bilmərəm, amma son 5-6 ildə tikilmiş binaların tikiliş prosesini gördüyüm üçün deyə bilərəm ki, bizdə tikilən binalar çox keyfiyyətli və möhkəmdir.



Nəzərə alsaq ki, hər il mart ayının əvvəlində torpaq sahələrinin və həyət evlərinin qiymətlərində bahalaşma olur (tələbatın çoxalmasına görə). Onda deyə bilərik ki, gələn aydan həyət evlərində və torpaqlarda kəskin bahalaşma qeydə alınacaq. Daha çox bahalaşma çıxarışı olan (Kupçası olan ) həyət evlərində və torpaq sahələrində qeydə alınacaq.

Bir məsələni də qeyd etmək istəyirəm ki, bu təbii fəlakət təkcə satışı yox, həm də həyət evlərində kirayə qiymətlərinin artmasına və tələbatın çoxalmasına səbəb olacaq. Həyət evlərinin bahalaşması daha çox Bakı şəhərində və ətraf qəsəbələrdə olacaq. Mən demirəm daha yeni tikilən mənzilləri alan olmayacaq, sadəcə, həmin evlərdə bir müddət alıcısı əvvəlki illərlə müqayisədə az olacaq.

Ümumilikdə keçən illərlə müqayisə etsək, bu il, yəni 2023- cü il həyət evlərinin alqı- satqısı üçün əlamətdar bir il olacaq və daha çox həyət evlərində alqı- satqı qeydə alınacaq.

Mən də bir azərbaycanlı kimi sizin vasitənizlə qardaş ölkədə baş vermiş zəlzələ nəticəsində həyatını itirmiş bacı və qardaşlarımıza uca Allahdan rəhmət, yaralılarımıza isə şəfa diləyirəm. Onlara demək istəyirəm ki, qardaşlar, acınız bizim də acımızdır. Azərbaycan xalqı sizinlədir yaxşı gündə də, pis gündə də. Başımız sağ olsun".

***Ayşən Vəli***

# İranla Ermənistanın birgə təxribat planlarında MARAQLAR



**İran və Ermənistanın Azərbaycana qarşı təxribat planları barədə son günlər müxtəlif informasiyalar yayılmaqdadır. Hətta bu təxribat planlarının məhz Türkiyədə zəlzələ olmasından, qardaş ölkənin zəlzələ səbəbindən bölgəyə diqqətinin azalmasından qaynaqlandığı da fərziyyələr içərisində yer alır, amma Ermənistanı özünə qardaş ölkə hesab edən İranın təxribat planlarının hələ əvvəldən olduğu, sonuncu dəfə Tehrandakı səfirliyimizdə olmaqla, dəfələrlə öz təsdiqini tapıb.**

Sözsüz ki, İran da, Ermənistan da Türkiyədə baş verən zəlzələ ilə bağlı mövcud vəziyyəti "imkan" kimi qiymətləndirə bilər, amma bu, onların yanılmaması demək deyil, çünki istər Ermənistanın, istərsə də İranın bölgədə istənilən təxribatına, terroruna Azərbaycan cavab verdiyi zaman rəsmi Ankara biganə qalmayacaq. Nə Ermənistan, nə də İran tərəfi bölgədə təxribat, terror planını reallaşdıracaq halda Azərbaycanın buna cavab vermək əzmində olduğuna şübhə etmir, çünki Azərbaycan Ordusunun nəyə qadir olduğunu, hansı qüdrətə, gücə, imkana sahib olduğunu hər iki ölkə yaxşı bilir və 44 günlük müharibə zamanı hərbi qüdrətimizin hansı həddə olduğunu görüblər. Üstəlik, Ermənistanla yanaşı İran da şübhə etməməlidir ki, hər hansı birinin törədəcəyi təxribata, yaxud birlikdə törədəcəkləri təxribata qarşı Türkiyə Ordusunun müdaxiləsi bir an belə gecikməyəcək və bu məsələdə zəlzələ hadisəsinin, təbii fəlakətin olması heç bir maneə sayıla bilməz.

Heç şübhəsiz ki, Ermənistan hər zaman təxribat planları qurmaqdadır və bir növ bu ölkə, bu işğalçı ölkə təxribat, terror törətmədən dayana bilmir. Ələlxüsus, Qarabağdan əli üzülən ermənilərin indi hər vəchlə nəyə isə əl atıb aranı qarışdırmaq istəyi, arzusu, ən azından xəyalı anlaşılandır. "Həmişə olduğu kimi, əksər ermənilər xəyal ilə reallığı qarışdırırlar", deyən erməni analitik Toros Aleksanyanın öz toplumunun bu xislətini açıq şəkildə etiraf etməsi də təsadüfi deyil. Türkiyədə baş verən zəlzələdən "ruhlanan" ermənilərə həmin analitik başa salmaq istəyir ki, əvvəla o qədər böyüklükdə olan ölkə üçün bu hadisə onun çökməsi demək deyil, digər tərəfdən də onlara reallıqla, xəyalı qarışdırmamağı tövsiyyə edir. Amma görünür, ermənilər hələ də xayalı reallıqla qarışdırmaqdadırlar və İranı da məsələyə qarışdırmaqla, bölgədəki "proseslərdə" iştiraka sövq etməklə, hansısa çirkin məqsədə nail olacaqları onlar tərəfindən xəyal edilir. Rəsmi Tehran nə qədər tez dərk etsə bir o qədər yaxşı olar ki, İrandan əvvəl Ermənistanın bölgə ilə bağlı öz maraqları onlar üçün ön planda durur və bu baxımdan İrəvanın sərhəd təxribatlarının nəyə hesablandığı, eləcə də maraqları barədə ilk növbədə düşünmək, həmçinin nəticə çıxarmaq gərəkir.

Əlbəttə ki, Ermənistan tərəfi sərhədlə bağlı danışıqlarda müəyyən qədər də olsa "durum" əldə etmək üçün Azərbaycan Ordusunun nəzarət etdiyi strateji ərazilərdə irəliləmək arzusundadır, baxmayaraq ki, bu, elə xəyal olaraq görülür. Rəsmi İrəvan dəfələrlə şahidi olub ki, danışıqlar zamanı bir addım yox, çox geredədir və Azərbaycan tərəfi qalib tərəf olaraq çıxış edir. Hər dəfə danışıqlarda razılaşmaqdan başqa çarəsinin olmadığının şahidi olan Ermənistan hakimiyyəti bu baxımdan hansısa irəliləyişə nail olmaqda maraqlıdır. Buna görə də planlaşdırdıqları təxribatların reallaşmasını arzulayır, daha doğrusu xəyal edir. Ən azından hansısa təxribatların plan olaraq qarşılarına qoyulduğu mümkün haldır və hər an öz çirkin planları naminə hansısa addım ata bilərlər.

Eyni zamanda, onu da unutmaq lazım deyil ki, Ermənistan hər zaman qara-qışqırıq salaraq, beynəlxalq ictimaiyyətin diqqətini cəlb etməyə çalışıb. Uzaq keçmişdə olanlar bir tərəfə, son zamanlar Laçın yolunda ekoaktivistlərin dinc aksiyası üzərindən Azərbaycana qarşı beynəlxalq təzyiqə nail olmaq planları, istəkləri bunun əyani sübutudur. Həmin o dinc aksiyanı dünya ictimaiyyətinə tamamilə yanlış şəkildə təqdim etmək üçün ermənilərin əllərindən gələni əsirgəmədikləri heç kim üçün sirr deyil. İkinci Dünya Müharibəsi zamanı Lininqrad şəhərinin alman qoşunları tərəfindən 872 gün davam edən hərbi blokadası ilə ekoaktivistlərin dinc aksiyasını utanmadan müqaisə edən ermənilərin məqsədi Bakıya qarşı beynəlxalq ictimaiyyətin təzyiqinə nail olmaq idi. Buna əlbəttə ki, nail ola bilmədilər, çünki əvvəla, beynəlxalq hüquqda Qarabağ Azərbaycan ərazisi kimi tanınır, digər tərəfdən də biz artıq informasiya müharibəsinin də qalibləriyik və onların yalanlarını bütün dünyaya sübut etmək əzmindəyik. Təbii ki, Laçın yolundakı dinc aksiyadan öz çirkin, yalan təbliğatları üçün istifadə edə bilməyən ermənilərin sərhəddə təxribat törədərək Azərbaycanı "təcavüzkar" kimi qələmə vermək istəyi də bundan sonra istisna edilə bilməz.

Hər zaman olduğu kimi, indi də ermənilər hansısa təxribatı törədib sonra da özlərini məzlum, əzilən toplum olaraq göstərmək niyyətindədirlər və bununla da rəsmi Bakıya qarşı beynəlxaq təzyiqlər etmək arzusundadırlar. Burada bir məqam, xüsusən anti-Rusiya arqumentlərini gücləndirmək istəkləri də diqqəti cəlb etməyə bilməz. İndi erməniləri bölgədə Rusiyanın heç nəyə nəzarət edə bilmədiyi, rus sülhməramlılarının mənasız yerə ərazidə olduğu görüntüsünü yaratmaqda maraqlıdırlar və bununla da Avropa İttifaqı missiyasının vacibliyini göstərmək istəyirlər. Ona görə ki, Fransanın birbaşa bölgəyə soxulması Rusiya üçün qəbuledilməz sayılır və bunu rusların həzm etməyəcəyi də hamıya bəllidir. Elə bu fonda da istənilən anda planlaşdırdıqları təxribatları gerçəkləşdirmək niyyətləri baş qaldıra bilər və bununla da, təxribatlar törədərək guya "Ermənistanın təhlükəsizliyini Rusiyanın qoruya bilməməsi" bəhanəsi ilə çıxış edərək, Avropa İttifaqı missiyasının əhəmiyyətini göstərmək istəyə bilərlər. Məqsədləri də birinci növbədə, Fransaya məxsus olan qüvvələrin bu missiya tərkibində bölgəyə soxulması hesab olunur. Deməli, istənilən anda erməni təxribatları gözləniləndir və bu, sadalananlar fonunda Ermənistanın maraqları daxilindədir.

İran tərəfinin də təxribatlarla bağlı öz maraqları var, baxmayaraq ki, Ermənistanı qardaş ölkə adlandırır. İran heç də Ermənistanın ipinin üstünü yük qoymaq niyyətində ola bilməz, çünki ermənilərin nə qədər etibarsız olduğunu molla rejimi hamıdan yaxşı bilir. İranın təxribatların törədilməsində ilk məqsədi, birinci növbədə marağı Türkiyə, Rusiya və Azərbaycanın üçtərəfli razılaşmalar fonunda bölgədə yaratdığı balansın pozulmasıdır və bu balansın pozulması fonunda da bölgədə eskalasiya görüntüsü yaratmaqla, Avropa İttifaqının, həm də Fransanın regionda varlığını molla rejiminin legitimləşdirmək niyyəti göz önündədir. "İran Avropa İttifaqı missiyasının və Fransa jandarmlarının sərhəddə yerləşdirilməsinin əleyhinə deyil", deyə İranın Ermənistandakı səfiri Abbas Bədəxşan Zohurinin bəyan etməsi də qeyd olunanları təsdiq edir.

İranın özünün də geosiyasi vəziyyəti yaxşı deyil, bu ölkə hansısa hərbi müdaxilə ssenarisindən qorxur və elə buna görə də rəsmi Tehranın İrəvana yardım etməsi, ələlxüsus Fransanın bölgədə varlığı üçün həmin ölkənin əlinə oynaması da başadüşüləndir. Çünki İran özünə düşmən bəllədiyi İsrailin yaratmaq istədiyi beynəlxalq koalisiyada Fransanın olacağı gözləntisi ilə bu məsələdə maraqlı görünür. Yəni, Tehranın "canfəşanlığı" heç də əbəs yerə deyil və bu, heç də erməni təəssübkeşliyindən irəli gəlmir.

Molla rejimi elə hesab edir ki, sərhəddə yarana biləcək genişmiqyaslı toqquşma ilə məlum üçtərəfli razılaşma da, bunun fonunda Zəngəzur dəhlizi ilə bağlı məsələ də arxa planda qala bilər, baxmayaraq ki, yenə də yanılır. "İran və Ermənistan dəhlizin yaranmasına imkan verməyəcək", deyə İranın Ermənistandakı səfiri öz açıqlamasında bildirib və bu da deyilənləri təsdiq edir və bəlli olur ki, həqiqətən də Zəngəzur dəhlizinin açılmasına mane olmaq İranın marağı daxilindədir. Avropa İttifaqının bölgəyə gəlişinə hər zaman qarşı çıxan İranın hal-hazırda sözügedən missiya daxilində Fransanın belə iştirakını dəstəkləməsi artıq anlaşılandır və bütün bunlar onu deməyə əsas verir ki, sərhəddə yaratmaq istədikləri təxribatlarda Tehranın və İrəvanın ayrı-ayrılıqda öz xüsusi maraqları var.

***İ. Hacıyev***

# "Prezidentin qayğısı yüksək qiymətləndirilir"

## *KOMİTƏ SƏDRİ ŞƏRH ETDİ*



**"Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin, "Əmək pensiyaçılarının indeksləşdirilməsi haqqında" 2023 - cü il 10 fevral tarixli sərəncamı 1,1 milyon insana şamil ediləcək və yeni artımlar üçün illik əlavə olaraq 728 milyon manat vəsait ayrılacaqdır." Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, millət vəkili Tahir Rzayev deyib.**

Komitə sədri vurğulayıb ki, bu, pensiyaçıların sosial müdafiəsinin gücləndirilməsi, rifahlarının təminatı üçün əhəmiyyətlidir. "Yeni sərəncamla bütün növ pensiyaların indeksləşdirilərək 14,7 faiz artırılması dövlət tərəfindən həyata keçirilən sosial siyasətin və pensiyaçılara göstərilən qayğı və diqqətin ifadəsi kimi dəyərləndirilməlidir.



Pensiyaların indeksləşdirilərək artırılması elektron sistem üzərindən avtomatik olaraq həyata keçiriləcəkdir ki, bu da insanların bir növ rahatlığına xidmət edir.

Hər il pensiyaların, müavinlərin, əmək haqlarının artırılması əlbəttə ki, ölkəmizin artan iqtisadi qüdrətindən və dövlətin öz vətəndaşlarına qayğısından xəbər verir. İnsanlar dövlət rəhbərimizin bu sərəncamını da yüksək qiymətləndirir və müsbət rəylərini ifadə edirlər", deyə Tahir Rzayev bildirib.

***İnam***

# Qanunsuz tikililərə qarşı hansı tədbirlər görülür?

## *QURUMDAN AÇIQLAMA*

Bakı Şəhəri üzrə yaşayış binaları və qeyri-yaşayış obyektlərinin tikintisinə icazələr Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Bakı şəhər Memarlıq və Şəhərsalma Baş İdarəsi tərəfindən verilir.



Qanunsuz tikililərə yerli səviyyədə şəhərsalma nəzarətini yerli icra hakimiyyətləri, tikintiyə dövlət nəzarətini isə FHN həyata keçirir. Şəhərsalma və Arxitektura Komitəsinin mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, komitəyə daxil olan şikayətlər əsasında belə bir hal aşkarlanırsa, tədbir görülməsi üçün aidiyyəti üzrə yerli icra hakimiyyətləri və FHN-ə müraciətlər göndərilir.

# Heydər Əliyev-100




# İnsan və vətəndaş hüquqlarının qorunması Ümummilli Liderin adı ilə bağlıdır

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin müəllifi olduğu və 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyasında insan hüquq və azadlıqlarının təminatı dövlətin ali məqsədi kimi ön plana çıxmışdır. Konstitusiyada öz əksini tapmış bu strateji məqsəd, ilk növbədə, hüquq islahatları və insan haqlarının qorunması prinsipinin tətbiqini zəruri etmişdir. Azərbaycan Respublikasının Konstitusiyasında insan hüquq və azadlıqlarına geniş yer verilməsi ilə Azərbaycan demokratik, hüquqi və dünyəvi dövlət olaraq insan hüquqlarına böyük önəm verdiyini bir daha nümayiş etdirmişdir. Belə ki, Əsas Qanunumuzun III fəslinin insan və vətəndaş hüquq və azadlıqlarına həsr edilməsi ölkəmizdə bu sahənin prioritet məsələ olduğunu bir daha sübut edir. Ulu Öndər Heydər Əliyevin 1996-cı il 21 fevral tarixli Sərəncamı ilə yaradılmış Hüquqi İslahat Komissiyası ölkədə həyata keçirilən hüquqi islahatların geniş vüsət almasına təkan vermişdir. Komissiya tərəfindən işlənib hazırlanmış "Konstitusiya Məhkəməsi haqqında", "Məhkəmələr və hakimlər haqqında" qanunlar məhkəmə sisteminin yaradılmasına və fəaliyyət göstərməsinə, insan hüquq və azadlıqlarının müdafiəsi məqsədilə məhkəmə hakimiyyətinin müstəqil fəaliyyətinə imkan yaratmışdır.

Ölkəmizdə Ulu Öndər tərəfindən həyata keçirilən hüquqi islahatlar dövlətçiliyimizin möhkəmləndirilməsinə, sabitliyin yaranmasına və bununla da, cəmiyyətimizin gələcək inkişafında insan hüquq və azadlıqlarının müdafiəsinə yönəlmiş yeni hüquq sisteminin formalaşmasına real şərait yaratmışdır.

## Azərbaycan Şərqdə ölüm hökmünü ləğv edən ilk ölkədir

Ulu öndərimizin 1993-cü ildən tətbiqinə moratorium qoyduğu ölüm hökmü 1998-ci il fevralın 10-da tamamilə ləğv edilmiş, bununla da, Azərbaycan Respublikasının adı Şərqdə ölüm hökmünü ləğv edən ilk ölkə kimi tarixə düşmüşdür. Bu, ölkəmizin hələ Avropa Şurasına üzv qəbul olunmadığı dövrlərdə insan hüquqları sahəsində atılan ən mütərəqqi addımlardan biri idi. Azərbaycan BMT-nin İnsan Hüquqları Ümumi Bəyannaməsinə və digər beynəlxalq konvensiyalara da qoşulmaqla insan hüquqları sahəsində beynəlxalq miqyasda təsbit olunmuş prinsiplərə sadiqliyini nümayiş etdirmişdir.

> **Ulu öndərimizin 1993-cü ildən tətbiqinə moratorium qoyduğu ölüm hökmü 1998-ci il fevralın 10-da tamamilə ləğv edilmiş, bununla da, Azərbaycan Respublikasının adı Şərqdə ölüm hökmünü ləğv edən ilk ölkə kimi tarixə düşmüşdür**

Azərbaycanda ölüm hökmü ləğv edilən vaxta qədər ölüm hökmünə məhkum edilmiş, lakin cəzaları icra olunmamış 128 nəfərə həyatları bağışlanıb. Buna qədər Azərbaycanda yalnız ağır, xüsusilə ağır cinayətlərdə məhkum olunan şəxslərə ölüm hökmü elan edilib. Sabiq müdafiə naziri Rəhim Qazıyev, baş nazir Surət Hüseynov, sabiq kənd təsərrüfatı naziri Müzamil Abdullayev, keçmiş Xüsusi Təyinatlı Polis Dəstəsinin Qazax bölməsinin komandiri Elçin Əmiraslanov, özünü qondarma "Talış-Muğan Respublikası"nın rəhbəri elan etmiş Ələkrəm Hümbətov barəsində məhkəmənin qərarı ilə ölüm hökmü çıxarılsa da, sonradan onların cəzaları dəyişdirilib.

Azərbaycanda ölüm hökmü Bayıl həbsxanasında, "ölüm kamerası" adlanan otaqda yerinə yetirilib. Cəza yalnız bir üsulla - güllələnmə ilə icra olunub. Vaxtı ilə həbsxanada çalışmış insanların sözlərinə görə, ölüm cəzası almış məhkumlar "ölüm kamerası"na gözübağlı gətirilirmiş. Burada məhkumun əziyyətsiz ölməsi üçün ürəyinə bir atəş açılırmış.

Bayıl həbsxanasında çalışan şəxslərin dediklərinə görə, uzun illər burada erməni millətindən olan şəxslər cəlladlıq edib. Erməni cəlladlar məhkumları xüsusi amansızlıq və əzabla öldürürmüşlər. Ötən əsrin 30-50-ci illərində Bayıl həbsxanasında başqa bir edam növü-suda boğma da tətbiq edilib.

1998-ci il fevralın 22-də Ümummilli Lider Heydər Əliyev "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərman imzalamış, bu mühüm sənəddə insan hüquqlarının təminatı sahəsində həyata keçirilən tədbirlərin mahiyyəti və konsepsiyası dəqiq müəyyənləşdirilmişdir. İnsan hüquqlarının müdafiəsi sahəsində həyata keçirilən tədbirlərin səmərəliliyini artırmaq məqsədilə Ulu Öndər Heydər Əliyevin 1998-ci il 18 iyun tarixli Sərəncamına əsasən, "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" təsdiq olunmuşdur. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlər uğurlu həllini tapmış, ölkəmizin beynəlxalq təşkilatlarla əməkdaşlığı daha da genişlənmiş, respublikamız bir sıra beynəlxalq müqavilələrə qoşulmuş, yeni məhkəmə sistemi formalaşmış, konstitusion nəzarət mexanizmi olan Konstitusiya Məhkəməsi yaradılmış, 2001-ci il dekabr ayının 28-də "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Konstitusiya Qanunu qəbul edilmiş, ölkəmiz üçün yeni bir qurum olan Müvəkkil təsisatı yaradılmış, hüquq-mühafizə orqanlarının fəaliyyəti təkmilləşdirilmişdir.

"Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında" 2002-ci il 24 dekabr tarixli Azərbaycan Respublikasının Konstitusiya Qanunu ölkəmizdə insan hüquq və azadlıqlarının təmin edilməsi istiqamətində həyata keçirilən hüquqi islahatların və milli qanunvericiliyin beynəlxalq standartlara uyğunlaşdırılması prosesinin məntiqi davamı kimi çox mühüm əhəmiyyət kəsb etmişdir. Bu qanun həmçinin Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsi vəziyyətini "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyasına uyğunlaşdırılması məqsədi daşımışdır.



## İnsan hüquq və azadlıqlarının qorunması uğurla davam etdirilir

Bu gün Azərbaycanda insan hüquq və azadlıqlarının qorunması işi dövlət başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkə başçısının 2006-cı il dekabrın 28-də imzaladığı "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı" insan hüquqlarının təmin edilməsi prosesinin keyfiyyətcə yeni müstəviyə keçməsinə, dövlət və vətəndaş cəmiyyəti arasında tərəfdaşlıq münasibətlərinin yaradılmasına səbəb olmuşdur. Yeni çağırışların və cəmiyyətimizin inkişafından irəli gələn tələbatların nəzərə alınması baxımından Milli Fəaliyyət Planı insan hüquqlarının təmin olunması üzrə görülən ardıcıl tədbirlərin genişləndirilməsində, hüquq-müdafiə mexanizmlərinin təkmilləşdirilməsində, əhalinin müxtəlif qruplarının hüquqlarının qorunmasında yeni mərhələnin başlanğıcı olmuşdur.

Bu gün ölkəmizdə gedən demokratikləşmə prosesi, ictimai həyatın bütün sahələrində aparılan uğurlu islahatlar, beynəlxalq miqyasda əldə olunmuş nailiyyətlər insan hüquqları kimi həssas və daim konseptual yanaşmaların müəyyən olunmasını tələb edən sahədə tənzimləyici milli mexanizmlərin daha da təkmilləşdirilməsini və ardıcıl tədbirlərin həyata keçirilməsini vacib edir.

Dövlət başçısının "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nın təsdiq edilməsi haqqında 2011-ci il 27 dekabr tarixli Sərəncamı insan hüquqlarının müdafiəsi sahəsində tədbirlərin davamlılığının təmin olunması məqsədini daşıyır.

## Dünya ölkələrində hələ də ölüm hökmü var

Dünya ölkələrində bir qayda olaraq xüsusi ağır cinayətlər üçün edam cəzaları tətbiq olunur. Amerika Birləşmiş Ştatlarında ölüm cəzası mövcuddur. 1972-ci ildə ölüm cəzasına moratorium qoyulsa da, 1976-cı ildə ABŞ Ali Məhkəməsi ştatlara ölüm hökmünün icrasına icazə verib. Bundan sonra ilk ölüm hökmü 1982-ci ildə Texas ştatında icra edilib. ABŞ-da ölüm hökmü əsasən ağır şəxsiyyət əleyhinə cinayətlərə görə verilir və icrasına görə müxtəlif formalarda olur. Ölüm hökmünün icrasının beş növü var və Yuta ştatında hətta məhkuma bunlardan birinin seçmə imkanı verilir.

1991-ci ildə İnsan Hüquqlarının müdafiəsi haqqında Avropa Konvensiyasını təsdiq edən 6 saylı protokolda ölüm cəzasının ləğv olunduğu bəyan olunur. Yalnız 3 hal istisna olmaqla, ölüm cəzasının tətbiqi qadağan olunurdu. Bunlar: 1) Qanunsuz zorakılıqdan müdafiə, yeni zəruri özünümüdafiə vəziyyətində; 2) Məhkum saxlanılarkən və ya həbs yerindən qaçmasının qarşısı alınarkən; 3) Qiyam və ya kütləvi iğtişaş zamanı. Dövlətə qarşı həyata keçirilən qiyam və kütləvi iğtişaşın qarşısının alınması üçün ölüm hadisəsinə yol verilə bilər. Ancaq eyni zamanda müasir dünya praktikasında xüsusi ağır cinayət törədən qatillər ölüm cəzasına çatdırılır. Eyni zamanda bir sıra ölkələrdə narkotik tacirləri, təcavüzkarlar, hətta bəzi məlumatlara əsasən Çinin bir sıra əyalətlərində oğrular edam cəzasına məhkum olunur.

Hazırda bir çox müsəlman ölkələrində edam cəzası hələ də məhkəmə hökmləri sırasında qalmaqdadır. İran, Səudiyyə Ərəbistanı, Pakistan, İraq, Afrikanın bəzi müsəlman ölkələri edamların tez-tez rast gəlindiyi dövlətlər sırasındadır. Bu isə daha çox həmin ölkələrin qanunlarında şəriət hökmlərinə daha çox müraciət olunması ilə əlaqələndirilir. Dünyada ən çox ölüm hökmünün müsəlman ölkəsində kəsilməməsinə, eləcə də inkişaf etmiş dünya dövlətləri olan ABŞ və digərlərinin hələ də edam hökmündən imtina etməməsinə rəğmən nədənsə məhz edam cəzalarına görə daha çox müsəlman ölkələri qınanır. Məsələ ondadır ki, İslam hüququ klassik formada 3 əsas halda edam hökmünün tətbiqinə icazə verir. Müsəlmanın canına, malına və namusuna təcavüz halında. Yəni klassik formada şəriət məhkəmələri qatilləri, zorlanma və ya qeyri-qanuni cinsi əlaqələr (nikahdankənar münasibətlər) cinayətində iştirak edənləri və nəhayət, qarətçiləri. Sonuncu bənd ev oğurluğu deyil, daha çox ticarət, ziyarət və ümumiyyətlə səfər karvanlarına hücum edən quldurları ehtiva edir. Məsələn, hazırda da Səudiyyə Ərəbistanı məhkəmələrində yol kəsən quldurlar üçün boynu vurulmaqla həyata keçirilən edam hökmü tətbiq olunur.



Bundan başqa, narkotik ticarəti edam hökmü ilə cəzalandırılır. Xüsusən də İranda narkotik tacirləri, bu bəlanın yayılmasında iştirak edənlər üçün məhkəmələrdə ölüm hökmləri çıxarılır. Bu, nisbətən yeni cinayət növü hesab olunur, ancaq bir çox ölkələrdə edamların böyük qismi "ağ ölüm" yayanlara tətbiq olunur. Qeyd edək ki, bütün dövrlərdə qiyamlar, sui-qəsdlər bir qayda olaraq edam cəzaları ilə müşayiət olunub.



İran İslam Respublikasında molla rejimi dövründə ölüm hökmünün sayı sürətlə artıb. Burada tək yuxarıda sadalananlar deyil, insanların susdurulması üçün istənilən kiçik bir yanlışlıq bahanə edilərək dar ağacı hökmü verilib. Bütün bunlar isə insanlığa təhqir, insanlığa sayğısızlıqdır.

## 25 ildir ki, Azərbaycanın adı ölüm hökmü verən ölkələrin sırasında deyil

Bəli, insan müxtəlif cinayətlər də törədir, adam da öldürür. Bu, onun həm ailəsində, həm də yaşadığı cəmiyyətdəki çevrəsində aldığı tərbiyədən irəli gəlir. Hər bir insan isə törətdiyi cinayət üçün cəzasını almalıdır. Lakin bir insana hansısa bir əməli üçün ölüm hökmünün verilməsi ümumilikdə isanlığa təhqirdir. Bu səbəbdən də ömürlük həbslər daha yaxşı üsuldur. Bu həbs metodu onsuz da ölüm hökmünə çox bənzəyir. Lakin insanı daha yaxşı tərbiyə edir. Ölüm hökmü bir nəfərin cinayəti qarşılığında həyata keçirilirsə, cinayətkar bir güllə ilə həyatını itirir və bu, sanki dünyada belə bir adam olmayıbmış kimi qəbul olunur. Lakin hansısa bir cinayətə görə ömürlük cəza həm cinayətkarı mənəvi əzablar məngənəsində sıxır, həm də onun ətrafındakı məhbuslar üçün dərs olur. Eyni zamanda məhkumun bütün yaxın qohum-qonşuları, əqrəbaları şəxsin nə üçün həbsxanada olduğunun səbəblərini bilirlər ki, bunun özü də yaxşı bir tərbiyə metodudur.

Beləliklə biz qürur duyuruq ki, artıq 25 ildir, Ulu Öndərimizin qətiyyətli addımı ilə Azərbaycanın adı ölüm hökmü verən ölkələrin sırasında deyil. Bu, ölkəmizdə insan amilinə verilən dəyər, insanlığa sayğı və məhəbbətin təzahürüdür. Biz bu kimi keyfiyyətlərimizlə indi dünyada tanınan dövlətlərdənik. Yaxşı ki, Azərbaycanlıyıq.

***Mətanət Məmmədova***

# 14 fevral, yoxsa 30 iyun







**Azərbaycan tarixində baş verən əlamətdar hadisələr onun milli dəyərlərini, milli qürurunu yaşadan bir gün olaraq əbədiləşir. Yaşadığımız son illərin reallıqları bir daha tariximizə xalqımızın mübarizliyini, dəyanətini həkk etmiş oldu. Qəhrəman vətən övladlarının şücaəti ilə tariximizə yeni qürurverici günlər daxil olub. Bu əlamətdar günlərin hər birinin səhifələrində Azərbaycan xalqının nə qədər əzəmətli, ləyaqətli, mənəvi-əxlaqi keyfiyyətlərə sahib olduğunu görürük. Azərbaycan xalqının yaşadığı ictimai-siyasi hadisələr zamanı bir daha xalqımıza məxsus dəyərləri özünün qabarıq şəkildə göstərmiş oldu.**

Bu gün dünya ölkələrində qeyd olunan 14 fevral Sevgililər Günü sevgililərin, aşiqlərin bir-birlərinə eşq mesajları göndərdiyi bir günə çevrilib. Sevgililər Günü, 1800-cü illərdən sonra Amerikada Ester Hovlandın ilk Sevgililər Günü kartını göndərməsindən bu yana indiki vaxtda daha çox sayda insanın qeyd etdiyi ictimai bir hadisə halına gəldi. Sevgilər Gününün başlanğıc tarixi qədim Roma İmperiyasının dövrünə təsadüf edir. Miladdan sonra ilk əsrlərdən bəri hər il fevral ayının 14-də qeyd olunan Sevgililər Gününün başlanğıcı ilə əlaqədar olaraq o gündən günümüzə qədər gəlmiş müxtəlif əfsanə və hekayələr var. Amma bu hekayələri üstələyən xalqın həqiqəti bayramı sevgililər gününün tarixində dəyişiklik yaratdı.Təkcə tarixində yox, məzmununda, ideyasındakı fərqlilik başqa məcra aldı. 30 İyun tarixi də - Sevgililər günü də təqvimdə yer alıb. Sevgi hissi vətənə, anaya olan ülvi duyğulardan boy atır. Bu müqəddəs məfhum insanın daxili dünyasından güc alaraq bəşəriləşir, milyonlarla insanın öz ifadəsinin təsdiqinə çevrilir. Sevgidən yaranan dünya insanların üzünə sevgi qapılarını açır. Vətənə sevgi olmadan kimisə sevmək, ona məhəbbətlə yanaşmaq qeyri-mümkündür. Çünki torpaqlarımızın nəfəsini, ətrini duyduqca insan sanki ülviləşir, dünayda güclü olduğunu anlayır və ilahi bir güc onun vücuduna hakim olur. Vətəni sevmək, onun üçün ölmək və yaşamaq hissindən böyük bir dəyər insana hakim ola bilməz. Necə ki, vətənpərvərlik ruhu ilə boy atmış gənclərimiz vətənin müdafiəsində duraraq, haqq savaşına qalxaraq, işğal altında olan torpaqlarımızı azad etdilər. Şəhidlik zirvəsinə yüksələn vətən övladları Vətən qarşısında ən müqəddəs borclarını vermiş oldular. Şəhidlik zivəsinə ucalmış 20 Yanvar şəhidi İlham Əjdər oğlu Allahverdiyev kimi. İlham və Fərizə Allahverdiyevlərin 20 Yanvarda şəhid olmuş bu azərbaycanlı ailə cütlüyünün toy gününü xalqımız Sevgililər günü kimi qeyd edir. Azərbaycan həyatında baş verən bu hadisə xalqın adət və ənənələrini, milli dəyərlərini, milli qürurunu yaşadan bir gün olaraq tarixiləşdi.

## SEVGİNİN, SƏDAQƏTİN VƏ CƏSARƏTİN GÖSTƏRİCİSİ

2003-cü ildən etibarən, bu gün 30 İyun Sevgililər Günü kimi ölkəmizdə qeyd olunur. Bu günün tarixi 1990-cı il yanvarın 20-də şəhid olan İlham və onun yoxluğuna dözə bilməyib intihar edən Fərizənin toy günü ilə bağlı olan amildir. İlhamın yoxluğuna dözə bilməyərək, özünə qəsd edən həyat yoldaşı Fərizənin toy gününün tarixçəsidir. Bu, sevginin, sədaqətin, cəsarətin göstəricisi sayılır və bütün sevgililərə əbədi örnək ola biləcək İlham və Fərizənin toy günü-30 iyun tarixi Azərbaycanda Sevgililər Günü kimi keçirilir.

Sevgililər Günü milli dəyərləri inkişaf etdirmək, qəhrəmanlıq tariximiz, sevgi kimi müqəddəs bir hissi özündə ehtiva edir. 20 yanvar faciəsinin qurbanı olmuş İlham və Fərizənin toy gününü 30 iyun tarixi Azərbaycanda Sevgilər Günü kimi qeyd olunması ideyası birmənalı qarşılandı. Bunun əhəmiyyəti onunla bağlıdır ki, yetişən nəsil öz tarixi ilə bağlı həqiqətləri hər zaman xatırlaya biləcək, bu günün tarixini araşdıran kəslərə Azərbaycanda baş verən hadisələr, İlham və Fərizənin fədakarlığı, Azərbaycan qadınının dəyanəti tam şəkildə aydın olacaq. İki gəncin ölümünə səbəb olan amil - rus imperiyasının Azərbaycan xalqına qarşı yürütdüyü qanlı siyasət neçə-neçə insan taleyini alt-üst etdiyi kimi, azadlıq eşqi ilə yaşayan ilhamların, fərizələrin də həyatına son nöqtəni həkk etdi.

Xatırladaq ki, İlham Allahverdiyev 1962-ci ildə Ağdamda anadan olub. Əvvəlcə oradakı 1 saylı, sonradan Bakıdakı 54 saylı orta məktəbdə təhsil alıb. Uşaqlığının bir hissəsini Ağdamda - nənəsinin yanında keçirib. Sonra hərbi xidmətə gedib. Xidmətini başa vurandan sonra Bakıya qayıdan İlham Gəmi Təmiri Zavodunda işləməyə başlayıb. Hazırda həmin zavod İlham Allahverdiyevin adını daşıyır.

1989-cu ilin 30 iyununda da "Vağzalı" sədaları altında Fərizə İlhamgilə gəlin köçüb. 1990-cı ilin yanvarında İlhamla Fərizə ailələrindən ayrı yaşamaq qərarına gəlirlər. Amma yanvarın 19-da İlham Fərizəni yaşadıqları evdən götürüb, anasıgilin yanına aparır. Fərizənin təhlükəsizliyinə əmin olandan sonra İlham əynini geyinib evdən çıxır. Bu tarix Azərbaycan xalqına, xüsusilə, gənclərə, tələbələrə daha da sirayət edir. 30 iyun təkcə iki gəncin birbirini sevdiyi, həmçinin iki gəncin şəhid taleyi də deyil. 30 İyun bir millətin yaşadığı tarixdir. Yəni 20 yanvar hadisələri baş verməsəydi, 30 iyun bayram gününə çevrilməzdi. Bu, böyük sevgilərin, mübariz insanların düşüncəsini, məqsədini gerçəkləşdirən tarixdir. Bu tarixi gün özündə çox məqamları birləşdirir.

## "MƏN SƏNİN ARXANCA MÜTLƏQ GƏLƏCƏM"

İlhamla Fərizə nümunəsi bir məktəb yaratdı. Ən böyük əxlaqi, milli dəyərlər bu günün altında özünü göstərir. Bu tarixi gün çox şeylər üzərində qalibiyyətdir. Neçə-neçə Valentinlər Azərbaycanın İlham və Fərizəsi ilə müqayisə oluna bilməz. Azərbaycana xarici təcavüz olanda gecə yatmayaraq düşmənin qarşısına əliyalın çıxan igid bir oğulun vətəpərvərliyidir bu. İlhamın sevgisi uğrunda heç nəyi göz önünə almayan "Mən sənsiz yaşaya bilməyəcəm. İlham, mən sənin arxanca mütləq gələcəm", - deyən Fərizənin ismətidir, mərdliyidir, dəyanətidir, vəfasıdır, 20 yaşlı qızın cəsarətidir. İlhamla Fərizə Azərbaycan xalqının tarixində elə hadisədir ki, o, dünya xalqlarının heç birinin tarixində yoxdur.

1989-cu il iyun ayının 11-də Fərizənin, iyunun 30-da isə İlhamın toyu olub. Beləcə, bir-birinə qovuşan gənclər 6 ay birgə xoşbəxt tale yaşayıblar. Necə deyərlər, düşmənin atəşi Bakıda açılana qədər. 1990-cı il 19-dan 20 yanvara keçən gecə baş verən hadisədə düşmənin hücumu qarşısına çıxan ər oğullar içərisində İlham da var idi və şəhid olanların içərisində onun da adı oldu. Narahat yaşayan Fərizə son saatlarını yaşayır. Fərizə elə bil başqa dünyada idi. Heç kimi gözü görmürdü. İlhamın "Şəhidlər Xiyabanı"nda basdıracağını eşidən kimi, qərarını qətiləşdirir. İlham Xırdalandakı məzardan çıxarılan gün, səhət saat 5-6 radələrində qatı sirkə turşusu içib özünü öldürür. İlhamla bir məzarda dəfn olunmaq, onu yalnız qoymamaq istəyi idi bu.

Budur, sevgi Şəhidlər Xiyabanınında tariximizin ən möhtəşəm abidəsini yaratdı. Artıq tariximizin ən şanlı və möhtəşəm məkanıdır, bura. Əbədi yuva salıblar bu məkanda. Zirvədə, ucalıqda yaşayırlar. Hər kəsin ziyarət məkanına çevrilən yerdə hər zaman İlham və Fərizə hekayəti danışılır. Tanrı ömrünü əsrlərə həkk edən bir ömrə sahib oldular.

Belə insanların timsalında cəmiyyətə vətəndaşlar yetişdirilir. Düşmən gülləsinə sinəsini gərən, sevgisi üçün fədakarlıq göstərən və düşmənin kin və hiyləsinə açıq etirazını bildirən bu gənclər örnək olaraq məhəbbətlə xatırlanır.

Belə bir tarixi Sevgililər günümüz olduğu halda, bəs görəsən, 14 fevral Sevgililər gününün qeyd olunmasına ehtiyac duyulurmu?!

***Nəzakət ƏLƏDDİNQIZI***



RÖVŞƏN
rovsen.rasulov@mail.ru

# Fransız jandarmları Ermənistanda: nə baş verir?

**Əslində köşənin sərlövhəsi, yaxud buradakı sualın məğzi hər bir azərbaycanlıya kifayət qədər məlumdur. Sadəcə, mövzu paralel olaraq həm də başqa məsələdədir. Misal üçün, sual edə bilərik ki, əcəba, fransız jandarmları Ermənistanın ambisiyalarına görə canlarını qurban verməyə hazırdılarmı? Yaxud, onlar buna hazır olsalar belə, mənasız ölümlərini çoxmu istəyirlər? Tutaq ki, onlar cib dəftərçələrinə Azərbaycanın "açdığı atəşlərin" sayını qeyd edəcəklər, bəs Ermənistanın təxribatları necə fiksasiya ediləcək, ya da ümumiyyətlə ediləcəkmi?**

Və ən əsas sual: fransızlar öz oğul və qızlarını ermənilərin təxribatlarına mütləq şəkildə cavab verəcək Azərbaycan Silahlı Qüvvələrinin atəşləri altına atmağa bu qədərmi razıdırlar?

Bax, bu yerdə köhnə, lakin hər zaman öz yerində dayanan bir ibarəni xatırlatmaq olar - cinayətkarın milləti olmur, o da qala bir ölkənin ərazi bütövlüyünə qarşı iddia edən, hər an silahlı təxribat törətməyə hazır olan, azərbaycanlıların qanına susayan bir ölkənin terrorçu silahlı qüvvələri ola. Həmin cinayətkar yalnız erməni deyil, fars, suriyalı, rus, livanlı, hətta fransız da ola bilər. Onları isə bir söz birləşdirir - CİNAYƏTKAR!

Daha sonra isə ən yaxın məsafədə olan Yelablur gorbagorxanası, ya da ən yaxşı halda gəldikləri ölkələrinin məzarlıqları, əlbəttə uğrunda canlarını verdikləri erməni terrorçuları onları göndərməyə macal taparlarsa...

Ermənistandakı revanşistlər xüsusilə Türkiyədəki zəlzələdən sonra əl-ayağa düşüblər. Gah farslarla Azəərbaycanın Laçın rayonuna hücum üçün təxribat planı qururlar, gah da bir az da irəliyə gedərək Türkiyəyə hücum etməyin zamanının çatdığını sərsəmləyirlər.

Amma daha bir məsələ də var. Əgər Avropa İttifaqı, daha dəqiq desək, fransızlların təhriki və inadı sayəsində göndərilən missiya həqiqətən də ermənilərə dərindən etibar etsəydi, indiyə qədər gözləməzdi. Dallarından təpiyi ilişdirib, "haydı, Azərbaycana qarşı hücuma keçin!" əmrini verərdi ermənilərə. Amma demir və deməyəcək də. Yəni buna cürət etməyəcək. Çünki qarşıda elə bir dövlət(lər) dayanıb ki..!

Ancaq erməni revanşistləri də bir reallığı qəti olaraq bilirlər. Bilirlər ki, nəinki Aİ, hətta böyük bacılarının göndərdiyi fransız jandarmları da onları son anda tənha qoyacaq. Revanşistlər isə növbəti dəfə işlənmiş ayaqyolu kağızlarından başqa heç nəyə dönüşməyəcəklər.

Fakt isə budur - Zəngəzur dəhlizi yalnız Azərbaycana və Türkiyəyə lazım deyil. Bu dəhliz elə Avropanın özünə də, Asiyaya da, Yaxın və uzaq Şərqə də, Rusiyaya da, hətta indi inadla üz-gözünü cıran Ermənistana da hava-su kimi lazımdır. Bəlkə də Gürcüstana elə də sərf etmir, amma İran iki ayağını diráyib bir başmağa. Belə olan halda kiçik bacıları ermənilərə qahmar çıxmağa gələn fransız jandarmları heç olmasa bunu düşünüblərmi? Çünki bildiyimiz qədər İranın molla rejimi fransızlarla da düşmən münasibətindədir. Lap tutaq ki, fransız jandarmları ermənilərin təxribatlarının güdazına getdilər. Bəs onda belə çıxmırmı ki, onlar fars-molla rejiminə görə də canlarını təhlükə altına atırlar? Yəqin ki, Paris gec də olsa bu barədə düşünməyə vaxt tapacaq. Nə qədər ki, gec deyil...

# Laçın yolu:
# Sülhməramlı və BQXK oyunu










Hər gün demək olar ki, eyni məlumatı eşidirik, Laçın Xankəndi yolunun Şuşa yaxınlığından keçən hissəsində neçənci gündür ki, ekoaktivistlər etiraz aksiyası keçirir və tədbirin məramını da xüsusi olaraq qeyd edirik. İki aydır ki, tələb edirik, hayqırırıq, soyuğa, şaxtaya, havanın sərt keçməsinə baxmayaraq səsimizin duyulmasını istəyirik. Amma bir xəbər yoxdur. Haqq işimiz dəyərləndirilmir, yerüstü sərvətlərimizi son tikəsinə qədər talayan, milli-mədəni, dini abidələrimizin yerinə süpürgə çəkən, vətəndaşlarımızı doğma elindən-obasından, isti yuvasından perik salan ermənilərin yeraltı sərvətlərimizin talamasına son vermək istəyirik eşidilmir. Ədalət axtarışımız bir nəticə vermir. Bir deyim var, "ədalət topaldır, asta-asta gəlir". Bir az da dəqiqləşdirmə aparsaq, qətiyyətlə demək olar ki, dünyanın ədaləti nəinki topaldır, həm də kordur, kardır. Düşünürdük ki, dünya ölkələri torpaqlarımızın ermənilər tərəfindən işğalına biganə qalmaz və özümüzü düz 25 il ovundurmağı bacardıq, dünyanın qeyrətə gələcəyinə ümidləndik. Verdikləri sözü tutacaqlarına, atdıqları imzaya hörmətlə yanaşacaqlarına özümüzü ciddi cəhdlə inandırdıq. Amma olmadı, ümid yenə özümüzə, öz gücümüzə, öz Rəhbərimizə, öz Ordumuza qaldı

## Sülh məramlılar, yoxsa...

Bugünkü mənzərə belədir, Qarabağımızın bir hissəsində, ermənilər yaşayan tikəsində Rusiyanın sülhməramlıları patrul xidməti aparır. 1960 hərbçi guya azərbaycanlılarla ermənilərin birgəyaşayışını təmin etmək üçün səfərbər olublar, müasir dillə desək ermənilərin Azərbaycan cəmiyyətinə inteqrasiyası üçün çalışırlar. Azərbaycan-Rusiya-Ermənistan arasında üçtərəfli Bəyanatın imzalandığı tarixlə bizi düz 2 il 3 ay ayırır, yəni 27 ay. Bu müddət ərzində nə baş verib? Heç nə, nə ermənilər bizimlə təmas qurub, nə biz onlara yaxınlaşa bilmişik, bir sözlə inteqrasiyadan, birgəyaşayışdan söhbət gedə bilməz. Rusiyalı sülhməramlılar bizdən bir xortdan düzəldiblər, erməniləri də inandırıblar ki, Rusiya sülhməramlıları olmasa azərbaycanlılar gəlib sizi öldürəcəklər. Tiqranın övladları da onların yalanına uyub hər vəchlə bizdən qaçmağa çalışırlar.

Yəqin ki, yadınızdadır, ekoaktvistlərin aksiyasının birinci günü jurnalistlərimizlə "sülhməramlılar" arasında təxminən belə bir dialoq olmuşdu. Rus "ofiseri" jurnalistə: "Gedin Azərbaycan tərəfdə dayanın" əmrini vermişdi. Deməli, sülhməramlı kimi Qarabağımıza təşrif buyuran rus əsgəri bu torpaqların kimə məxsus olduğundan bixəbərdir. Onun düşüncəsinə, təxmininə görə, ermənilər yaşayan ərazilər elə ermənilərə məxsusdur. Sülhməramlıların hesabatında ən yaxşı halda "Dağlıq Qarabağ", ən pis halda isə "Artsax" yazılırsa, deməli urus əsgərinin mahiyyəti budur. Onun baş verənləri anlamaq qabiliyyəti yoxdur, hüquqdan, elmdən, coğrafiyadan, tarixdən, ətrafda baş verənlərə elementar reaksiyadan söhbət gedə bilməz.

Ermənistan və ermənilər ciddi-cəhdlə dünya miqyasında sübut etməyə çalışırlar ki, Azərbaycan cəmiyyət institutlarının adından istifadə edərək Laçın yolunda "sadə ermənilər"in hərəkətinə mane olur, onları blokadada saxlayır, humanitar fəlakətlə baş-başa qoyur. Biz isə elə həmin dünya birliyinə var gücümüzlə bağırırıq ki, bizim niyyətimiz yolu bağlamaq deyil, istənilən maşın Laçın yolundan keçə bilər. Ədalətin ayağı topal ola bilər, amma dünyanın gözü kordursa, baş verənləri ancaq öz çərçivəsindən görə bilirsə, başqalarının təhriki ilə qərar verirsə, qətnamələrə imza atırsa, dağılsın belə dünyanı. Biz hansı dildə başa salmalıyıq, hansı yöntəmlərlə izah etməliyik ki, əsl blokada 30 ildən artıqdır ki, Azərbaycanın ayrılmaz hissəsi, suveren ərazisi olan Naxçıvana qarşı tətbiq edilib. Dəmiryolu və avtomobillərin uzun illər keçib getdiyi ərazilər Ermənistan tərəfindən məqsədli şəkildə nəinki bağlanıb, daha dəqiq ifadə etsək tamamilə sökülüb, ləğv edilib. Müharibədən ötən 27 ay ərzində Azərbaycan tərəfi müxtəlif platformalarda Şərqi Zəngəzurla Naxçıvanı birləşdirəcək dəhlizin açılmasına çalışır. Halbuki, üçtərəfli Azərbaycan-Rusiya-Ermənistan Bəyanatında bu barədə dəqiqliklə yazılıb. Azərbaycan öz öhdəliyini yerinə yetirib və Qarabağla Ermənistanı birləşdirən yolun nəzarətini 5 illiyinə Rusiya sülhməramlılarının ixtiyarına verib. Amma Ermənistan müxtəlif bəhanələrlə Naxçıvan Muxtar Respublikası ilə Şərqi Zəngəzuru birləşdirən nəqliyyat infrastrukturunun bərpasına imkan yaratmır. Bəs bunu dünya ölkələri, bizə qısqırdılan beynəlxalq təşkilatlar görmür? Bizdən tələb etməyə cəhd edirlər, amma öz imzalarına hörmətsiz yanaşan qərblilər nədənsə bütün bunları görməzdən gəlirlər.

Ən son xəbərdə oxuyuruq, "Xankəndidən Laçına və əks istiqamətdə Rusiya sülhməramlılarına məxsus 65 təminat-təchizat və minik avtomobili maneəsiz keçib. Rusiya sülhməramlılarına, həmçinin Beynəlxalq Qızıl Xaç Komitəsinə (BQXK) məxsus avtomobillər Laçın-Xankəndi yolunda dinc aksiya keçirilən ərazidən maneəsiz hərəkət edirlər. Bundan əlavə, BQXK-yə məxsus 6 minik və 1 yük avtomobili səhər saatlarında Xankəndidən Laçın istiqamətinə gedib. Günorta saatlarında isə həmin nəqliyyat vasitələri geri dönüb". Bu, bir daha onu göstərir ki, aksiya iştirakçıları humanitar məqsədlərlə istifadə olunan avtomobillərin hərəkətinə heç bir maneə törətmirlər. Ermənistan mətbuatında yayılan və etirazçıların guya Xankəndi-Laçın yolunu bağladıqları və təminat avtomobillərini buraxmadıqları ilə bağlı xəbərlər qarşı tərəfin növbəti dezinformasiyasıdır. Deməli, Azərbaycanı Qarabağda yaşayan ermənilərə "humanitar fəlakət" yaşatmaqda ittiham edən ölkələr, beynəlxalq təşkilatlar reallığı qəbul etmək istəmirlər. Onlara elə öz bildikləri, işləmək istədikləri xəbərlərin tirajlanması sərf edir. Onlar əvvəlki peşələrinə qayıdıblar, ehtiyatlarının bitdiyini hiss etdikcə korrupsiyaya daha çox meyl etməyə başlayıblar. Erməni lobbisindən para qoparmağa, onların maliyyə qaynaqlarından müəyyən fəaliyyət müqabilində yararlanmağa, konkret desək rüşvət almağa başlayıblar. Niyə də olmasın, məgər avropalıların, pulun iyini ən həssas heyvandan belə yaxşı bilən amerikalıların yeməyə ağzı yoxdur.

Bu gün Rusiya hərbçiləri əllərinə düşən fürsətdən maksimum yararlanmağa, qalan ömürlərini səfalət içində keçirməmək üçün ermənilərdən sağmal inək kimi istifadə edirlər. Bu məqamda qərblilərlə rusların hədəf və məqsədləri oxşardır. Qarabağda dislokasiya olunmuş, amma məramından getdikcə uzaqlaşan sülhməramlılar bu ərazilərdəki yeraltı sərvətlərimizin talanmasına ən azında erməni şirkətlərinə yardımlar edirlər. Onların fəaliyyətinə şərait yaradır, belə həssas bölgədə onların təhlükəsizliyinə təminat verir, hətta onlarla şərik rolunda çıxış edirlər. Yataqlardan çıxarılan qiymətli metalların Ermənistana daşınmasında sülhməramlıların əlinin olduğu heç kimə sirr deyil. Etiraz aksiyalarının keçirildiyi 2 ay ərzində yeraltı sərvətlərimizin talanmasına fasilə verildiyini düşünə bilərik. Amma yox, nə qədər ki, bu fakt dəqiq yoxlanılmayıb, bu barədə qəti fikir söyləmək olmaz. Nədir şübhəli məqamlar? Əvvələ son vaxtlar Rusiya sülhməramlılarının yük maşınlarının Xankəndiyə və əks istiqamətə "səfərləri" intensivləşib. Gündə 60-70 yük maşını və əlavə olaraq Qırmızı Xaç Komitəsinin 10-15 nəqliyyat vasitəsinin Laçın yolundan sağa-sola şütüməsi də bunu isbat edir ki, əslində yolun bağlanması iddiası kökündən yanlışdır. Və bu prosesdə qazanclı çıxan da elə sülhməramlılar və Beynəlxalq Qırmızı Xaç Komitəsidir (BQXK).

## Qırmızı Xaç Komitəsi, yoxsa sərnişindaşıma şirkəti?

Beynəlxalq Qırmızı Xaç Komitəsi dünya üzrə təxminən 97 milyon nəfər könüllünü, üzvü və işçi heyətini əhatə edən beynəlxalq humanitar hərəkat kimi tanınır. Bu təşkilat əslində insan həyat və sağlamlığını qorumaq, bütün insanlara hörməti təmin etmək, insanların əzab-əziyyətlərini yüngülləşdirmək və ondan qorumaq məqsədi ilə 170 ildən artıqdır ki, yaradılıb. Ermənilərə indiki "isti" münasibətini başa düşmək olardı, "əmma"sı olmasaydı. Əgər BQXK münaqişənin əvvəlindən fəaliyyətini dinindən, irqindən, milliyyətindən asılı olmadan bütün insanlara yardım üzərində qursaydı, bu gün bu təşkilatı tənqid atəşinə tutmazdıq. BQXK-nın Bakıdakı Nümayəndəliyi 1992-ci il 3 mart tarixdən fəaliyyətə başlayıb və iki həftə sonra Ağdam və Bərdə rayonlarında da ofisləri açılıb. Maraqlısı da budur ki, Azərbaycan hökuməti tərəfindən üzvlük haqqı olaraq hər il təxminən 40-60 min manat arası pul ödənilir. Amma Azərbaycanda fəaliyyətə başladığı gündən indiyədək bu beynəlxalq təşkilatın missiyası uğursuz olub.

Ermənistanın işğalı ilə baş-başa qalan azərbaycanlıların ən elementar hüquqları müdafiə edilməyib. Əsirlikdən qurtarılan soydaşlarımızı yalnız öz gücümüz və imkanlarımız hesabına ailələrinə qovuşdurmuşuq. BQXK Azərbaycanda ələ keçirilən erməni diversantlarla, Ermənistan silahlı birləşmələrinin öz ata-baba yurdunda, öz evində əsir, girov götürülən azərbaycanlıları tərəzinin eyni gözünə qoyub. Bəziləri deyə bilər ki, bu təşkilat insanları ayırmır, hamısına eyni gözlə baxır. Olsun, amma faktlar sübut edir ki, bu təşkilatın azərbaycanlılara və ermənilərə yanaşmasında fərqliliklər kifayət qədərdir. Ermənistanın işğalı dövründə, yəni 1989-1994-cü illər ərzində BQXK bu gün Qarabağ ermənilərinə etdiklərinin heç yüzdə birini də etməyib.

Bu gün BQXK-nin bütün avtomobilləri ermənilərin ixtiyarındadır. Daha doğrusu qırmızı xaçlılar fəaliyyət sferasını daha da "genişləndirərək" sərnişindaşıma ilə məşğul olmağa başlayıblar. Sanki marşrut avtobusudurlar, İrəvan-Xankəndi istiqamətində gündə 15-20 maşın erməniləri arzularına çatdırırlar. Əslində BQXK humanitar yardıma ehtiyacı olanlara yerində xidmət göstərə bilərlər. Amma Rusiya sülhməramlılarının görə bilmədikləri, yaxud Ermənistandan gətirə bilmədikləri erməniləri BQXK-nin missionerləri daşıyıb Qarabağa doldururlar. Adını da qoyurlar ki, biz siyasətə qarışmırıq. Bəs demoqrafik problem ermənilərin xeyrinə həll etmək kimi qeyri-qanuni hərəkətə nə ad verək?

**V.VƏLİYEV**

# Beynəlxalq tədbirləri milyonlara təqdim edən televiziya

## Dövlət başçısının Sərəncamı ilə İctimai Televiziya və Radio Yayımları Şirkətinə 940 500,0 (doqquz yüz qırx min beş yüz) avronun manat ekvivalentində vəsait ayrılıb

XX əsrin ən möhtəşəm kəşflərindən olan və hər gün insanlarla ünsiyyət yaradan, cəmiyyət həyatında əvəzsiz yer tutan televiziya yarandığı zamandan keşməkeşli günləri də, xoş soraqları da izləyicisinə çatdırıb. Ölkənin ictimai-mədəni həyatında əhəmiyyətli hadisələri milyonlarla tamaşaçıya təqdim edən Azərbaycan televiziyası hər kəsin evində bir ab-hava yaradıb. Xalqın maarifləndirilməsi, əxlaqi-estetik tərbiyəsi, məlumatlandırılması kimi təməl prinsiplərini fəaliyyət məqsədinə çevirən televiziya hər nəslin müasiridir. Ölkəmizdə fəaliyyət göstərən televiziyalar sırasında İctimai Televiziya və Radio Yayımının da öz yeri, çəkisi var. İctimai Televiziya müxtəlif məzmunlu proqramların, bir sıra beynəlxalq telelayihələrin Azərbaycanda eksklüziv yayımçısına çevrilib. Kann kinofestivalını, Vyana Filarmoniya orkestrinin konsertini, "World Music Awards", Olimpiya oyunları kimi bütün dünyada maraqla izlənən böyük layihələri Azərbaycan auditoriyasına, məhz İctimai Televiziya təqdim edib. 24 saat ərzində Azərspace və Hotbird peykləri vasitəsilə İctimai Televiziya və Radio dünyanın əksər ölkələrinə, www.itv.az ünvanlı internet saytı ilə bütün dünyaya yayımlanır.

Türkiyə, Macarıstan, Polşa, Koreya, Rumıniya, Gürcüstan, Almaniya, Fransa və digər ölkələrin ictimai yayımçıları ilə əməkdaşlıq şəraitində işləyərək, sözügedən telekanallarla mübadilə proqramları həyata keçirir. Belə əməkdaşlıq sayəsində təşkil edilən telekörpülər, birgə layihələr mədəniyyətlər vasitəsi ilə müxtəlif xalqlar arasında körpü yaradır, müxtəlif mədəniyyətə və dini görüşə malik xalqların daha da yaxınlaşmasına, qarşılıqlı anlaşmaya və inkişafa yardımçı olur.




Bu kanalın qısa müddətdə özünə layiq yer tutması, Azərbaycana bir çox yeniliklər gətirməsi, "Eurovision" və bunun kimi digər transmilli layihələrdə iştirakı qurumun həqiqətən də vətənpərvər bir telekanal olduğunu sübut etdi. "Eurovision" Mahnı Müsabiqəsi Azərbaycanda ilk dəfə 2006-cı ildə yayımlanıb. Həmin ilin may ayında İctimai Televiziya Yunanıstanda keçirilən 51-ci "Eurovision" Mahnı Müsabiqəsini Azərbaycan izləyicilərinə təqdim edib. Bu ənənə 2007-ci ildə də davam edib və Finlandiyanın paytaxtı Helsinkidə təşkil olunan Avropanın möhtəşəm televiziya şousu - "Eurovision" Mahnı Müsabiqəsi ikinci dəfə Azərbaycan auditoriyasına yayımlanıb. Artıq Azərbaycanın "Eurovision" Mahnı Müsabiqəsində fəal iştirakı üçün sosial tələbat var idi. 2007-ci ilin iyul ayında Azərbaycan İctimai Televiziya və Radio Yayımları Şirkətinin timsalında Avropa Yayımları Birliyinə (EBU) üzv qəbul olundu. Elə həmin ildən də ölkəmiz "Eurovision" Mahnı Müsabiqəsi layihəsinə iştirakçı kimi qoşulub. Həmin ildən başlayaraq müsabiqədə Azərbaycanın adı ön sıralarda çəkildi. Bu, Azərbaycan musiqisini əzəmətini, onun tarixi köklərinin möhtəşəmliyini əsaslandıran amildir. Televiziya xaricdə yaşayan soydaşlarımızı da unutmadı. "Qərib axşamlar" verilişi vətəndən uzaqda yaşayan insanlarımızın problem və istəklərini, uğurlarını bölüşdü. Bütün bunlarla yanaşı, İTV beynəlxalq əhəmiyyətli tədbirlərə yüksək səviyyədə hazırlığı ilə tarixə düşdü. Müxtəlif məzmunlu proqramları yayımlayan İctimai Televiziya müasir dövrün XXXIII Olimpiadasının Oyunları adlandırılan 2024-cü il Yay Olimpiya Oyunlarını da yayımlamaq hüququndadır. Hər dörd ildən bir yay fəslində keçirilən bütün dünyanı əhatə edən çox növlü idman yarışı məhz İctimai Televiziya vəsitəsi ilə milyonlarla insanlara təqdim olunacaqdır. Bildiyimiz kimi, "Azərbaycan Respublikası İctimai Televiziya və Radio Yayımları Şirkətinə maliyyə dəstəyi göstərilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən, 2024-cü ildə Fransanın Paris şəhərində keçiriləcək XXXIII Yay Olimpiya Oyunlarını yayım hüququnu Azərbaycan Respublikası İctimai Televiziya və Radio Yayımları Şirkətinin əldə etməsi üçün Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan İctimai Televiziya və Radio Yayımları Şirkətinə 640,0 (altı yüz qırx) min ABŞ dollarının manat ekvivalentində vəsait ayrılmışdır. Vurğulamaq yerinə düşər ki, İctimai Televiziya və Radio Yayımları Şirkəti dövr ilə ayaqlaşan gənc, yaradıcı, möhtəşəm idman növlərini təqdim edəcək XXXIII Yay Olimpiya Oyunlarını da işıqlandırmaq üçün yayım hüququnu qazanaraq, böyük auditoriyaya yayımlayacaq.

9 fevral 2023-cü il tarixində isə Azərbaycan Prezidenti İlham Əliyev "Azərbaycan Respublikasının İctimai Televiziya və Radio Yayımları Şirkətinə maliyyə dəstəyi göstərilməsi haqqında" Sərəncam imzalayıb. Sərəncama əsasən, 2024-cü ildə Almaniyada keçiriləcək futbol üzrə Avropa çempionatının yayım hüququnu Azərbaycan Respublikası İctimai Televiziya və Radio Yayımları Şirkətinin əldə etməsi üçün Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının İctimai Televiziya və Radio Yayımları Şirkətinə 940 500,0 (doqquz yüz qırx min beş yüz) avronun manat ekvivalentində vəsait ayrılıb.

Azərbaycan Respublikası əhalisinin - bütövlükdə cəmiyyətin, habelə onun ayrı-ayrı təbəqələrinin sosial, elm, təhsil, mədəniyyət, əyləncə və digər sahələrdəki ümumi maraqlarını təmin edərək, söz və fikir azadlığını, müxtəlif baxış və əqidələri əks etdirən İctimai Televiziya bütün informasiyaları, tədbirləri müasir texniki və keyfiyyət standartlarına uyğun şəkildə yayımlamaq kimi məqsədə xidmət göstərir. Belə ki, yarandığı zamandan İctimai Televiziya milli-mənəvi və ümumbəşəri dəyərləri qoruyub inkişaf etdirən maarifləndirici, məlumatlandırıcı proqramlar vasitəsilə vətəndaşların maraqlarını təmin edir. Azərbaycan və dünya müəlliflərinin əsərləri üzrə yüksək sənətkarlıq nümunəsi olan tamaşalar, bədii, sənədli və cizgi filmləri, seriallar, incəsənət əsərləri, mühüm tarixi və mədəni tədbirlər lentə alınaraq "Qızıl fond"da saxlanılır.

***Zümrüd BAYRAMOVA***

# Korporativ maraqların qurbanı

## *Tehran Zəngəzur dəhlizindən niyə qorxur?*

### İran Ermənistanın "başına sığal" çəkərək onu uçuruma aparır

2020-ci ilin 10 noyabrında imzaladığı kapitulyasiya ilə məğlubiyyətini etiraf edən Ermənistan üçtərəfli razılaşma ilə üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmir. Belə ki, imzalanan razılaşmadakı əsas şərtlərdən biri bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələrinin blokdan çıxarılmasını, Ermənistanın Azərbaycanın qərb bölgələri ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinə zəmanət verməsini özündə əks etdirən 9-cu bənd idi. Təəssüf ki, artıq münaqişənin bitməsindən iki ildən artıq zaman keçməsinə baxmayaraq Erəmənistan bu öhdəliyi yerinə yetirmir və məsələni müəyyən manipulyasiyalarla uzadır.

Düzdür, Ermənistan özü də etiraf edir ki, Zəngəzur dəhlizi onların sosial inkişafı üçün təkan rolunu oynayacaq. Çünki Paşinyan iqtidarı, o cümlədən Ermənistan cəmiyyəti anlayır ki, Azərbaycanın qəti qələbəsi regionun inkişfında yeni mərhələnin başlanğıcını qoyub və müharibədən dərhal sonra Azərbaycan Prezidenti bölgədə çoxtərəfli əməkdaşlıq platformalarının anonsunu səsləndirib. Hətta nümayiş etdirəcəyi konstruktiv mövqe əsasında bu əməkdaşlıq platformalarında Ermənistanın da iştirakı istisna olunmur. Amma erməni məkri, erməni xisləti davamlı sülhə, təhlükəsizliyə təhdid yaratmaqda davam edir.



Rəsmi İrəvanın Zəngəzur dəhlizi layihəsinin reallaşmasına mane olmasında xarici faktorların da rolu az deyil. Məsələn, adını "qonşu" qoyan, amma bütün addımlarında ölkəmizə qarşı düşmənçilik mövqeyi sərgiləyən İranın bu məsələdəki yanaşması anlaşılan deyil. Daha doğrusu, İranın Zəngəzur dəhlizinə qarşı tutduğu qəti mövqenin nəyə əsaslandığını anlamaq mümkün deyil.

### İran səfiri Ermənistanın da əvəzinə qərar verir

Yeri gəlmişkən, İran növbəti dəfə regionda sülhün, əməkdaşlığın və təhlükəsizliyin bərpa olunmasının əleyhinə mövqe tutduğunu ortaya qoyub. İranın İrəvandakı səfiri Abbas Bədəxşan Zohuri növbəti dəfə siyasi sabitliyə qarşı olduqlarını "etiraf edib". O bildirib ki, İran və Ermənistan Zəngəzur dəhlizinin əleyhinədirlər. Maraqlıdır ki, iranlı diplomat hətta Ermənistanın da yerinə bu iddianı səsləndirib - halbuki, Ermənistanın baş naziri Nikol Paşinyan eyni gündə Azərbaycana uzanan nəqliyyat yollarından istifadənin əleyhinə olmadıqlarını bəyan edib. İran səfirinin bu açıqlaması isə növbəti dəfə "ermənidən betər ermənilik" kimi qiymətləndirilə bilər.

Sərhəd məsələsinə də toxunan səfir sərhədlərin dəyişdirilməməli olduğunu vurğulayıb. Yəni, iranlı diplomat Azərbaycanın Ermənistanla təmas xəttində mövqelərinin möhkənlənməsindən Tehranın narazılığına işarə edib. Bu isə ilk belə hal deyil. Bu ilin yanvarın 20-də verdiyi açıqlamada da səfir Zohuri Ermənistanın təhlükəsizliyini İranın təhlükəsizliyi adlandırmışdı.

Beləliklə, İran hələ də öz modundan əl çəkmir - bu ölkə regional vəziyyətin sabitliyə doğru inkişafına mane olmağa çalışır. Qeyd edildiyi kimi, rəsmi Tehranın ortada maraqları mövcuddur. Sadəcə olaraq, İran indiki halda "başını sığalladığı" Ermənistanın da əvəzinə "bəyanatlar səsləndirir". Amma İrəvan anlamır ki, İran İrəvanı özünün korporativ maraqlarına qurban seçib.

### Molla rejimi regional nizamın dəyişməsindən çəkinir

İranın Azərbaycana qarşı apardığı düşmənçilik siyasətinin arxasında dayanan səbəblər fərqlidir və bəllidir. Bu baxımdan ki, birinci növbədə rəsmi Tehran Azərbaycanın son dövrlərdə beynəlxalq aləmdə güclənən nüfuzundan çəkinir. Yanvarın 27-də Azərbaycanın İrandakı səfirliyində baş vermiş terror zamanı bu daha bariz şəkildə ortaya qoyuldu - bütün dünya dövlətləri, beynəlxalq təşkilatlar İranda baş verən terroru qınadı və baş verənlərin məsuliyyətini rəsmi Tehranın daşıdığını bildirdi. Təbii ki, beynəlxalq aləmin bu mövqeyinin arxasında illərdir ki, aparılan diplomatik fəaliyyət - rəsmi Bakının xarici siyasət kursu dayanır.

Digər tərəfdən, İranın hazırkı geosiyasi durumu ürəkaçan deyil - çoxsaylı sanksiyalar, məhdudiyyətlər, beynəlxalq aləmdən təcrid olunma İrandakı daxili ictimai-siyasi vəziyyəti də gərginləşdirib. Sonuncu zəlzələnin fonunda ilk baxışdan daxili etirazların səngidiyi düşünülsə də, bu, belə deyil. Sadəcə olaraq, etirazların yeni mərhələsini daha kompakt şəkildə gözləmək lazımdır - artıq etirazçılar öz güclərini hakimiyyətə göstərdilər. Molla rejiminin amnistiya tətbiqi ilə bağlı qərarı buna misaldır - rejim etirazçıların qarşısında geri çəkildi.

İran anlayır ki, Zəngəzur dəhlizinin açılması bir çox mənalarda regiona yeni nizam qazandıracaq. Burada Türk birliyi amili olduqca böyük önəmə malikdir. Təsadüfi deyil ki, İranın rəsmi və ya qeyri-rəsmi kanalları Zəngəzur dəhlizini "Turan yolu" adlandırırlar. Rəsmi Tehran anlayır ki, dünyanın yeni iqtisadi aortasına çevrilmə potensialına malik Zəngəzur dəhlizi Türk dövlətləri arasındakı əlaqələri daha da yaxınlaşdıracaq. O baxımdan da, İranın davranışları anti-Türk dairələrinin maraqlarına xidmət göstərir. Halbuki, istər Azərbaycan, istərsə də Türkiyə dəfələrlə bu layihənin gerçəkləşəcəyi təqdirdə İranın da iqtisadi dividenlər qazanacağını açıq şəkildə bildirirlər. Tehran isə öz yolunu, öz xəttini "seçir" - həm Azərbaycanla, həm də Türkiyə ilə düşmən olmaq bahasına anti-Türk dairələrə, hansılar ki, ona qarşı irəli sürülən sanksiyalarda əsas söz sahibidirlər, xidmət etmək xəttini yürüdür. Ən əsası isə İran düşünür ki, Azərbaycanın iqtisadi cəhətdən güclənməsi onun regional maraqları ilə də uzlaşmır - bu, regionda Türkiyə-Azərbaycan birliyinin timsalında mühüm bir qüvvəni daha da gücləndirəcək. O baxımdan da, İran əlinə düşən fürsəti dəyərləndirir və qeyd edildiyi kimi, Ermənistandan öz maraqları üçün istifadə edir. Hazırkı vəziyyətdə Ermənistan üçün daha real xilas yolu sayılan Zəngəzur dəhlizinin açılmasının qarşısını almaq cəhdləri ilə İran bu ölkəyə ən böyük pisliyi edir.

***Pərviz Sadayoğlu***

# Sevginin günü olur?

ARAŞDIRMA



**Bildiyimiz kimi, bir çox dünya ölkələrində və eləcə də Azərbaycanda Sevgililər Günü hər il fevralın 14-də qeyd olunur. Belə ki, bu gün sevgililər biri-birinə hədiyyələr alır, surprizlər edirlər. İndi cütlüklər arasında xüsusi bir bəhsəbəhslik mövzusu da var. Məsələn, birinin sevgilisi bahalı hədiyyə aldı, filankəsin nişanlısı ona belə sürpriz etdi və s. Bəs, sevgi maddiyat üzərində qurulub? Mənəvi hədiyyələrlə də qarşı tərəfi sevindirmək olmazmı?**

SİA mövzu ilə bağlı araşdırma aparıb.

## Sevgililər günü necə meydana çıxıb?

Rəvayətə görə, imperator II Klavdi öz sərt qaydaları ilə Romanı qəddarcasına idarə edən hökmdar idi. Onun üçün ən böyük problem ordusunda döyüşmək üçün əsgər tapa bilməmək olub. Onun sözlərinə görə, bu vəziyyətin yeganə səbəbi romalı kişilərin



sevgililərini və ailələrini tərk etmək istəməmələri idi. Buna görə də o, Romada bütün nişan və nikahları ləğv edib. Müqəddəs Valentina Klavdinin dövründə Romada yaşayan bir keşiş idi. Valentina özü kimi bir keşiş olan Müqəddəs Marius ilə birlikdə, Klavdinin qadağasına baxmayaraq, gizli şəkildə evləndi. Lakin imperator bu vəziyyətdən bir müddət sonra xəbər tutdu. Müqəddəs Valentin insanlarla evlənməyə davam etdiyi üçün həbs edildi və etdiyi hərəkətin cəzası olaraq çubuqla döyülərək öldürüldü. Valentina eramızın 270-ci il fevralın 14-də xristian şəhidliyində dəfn edildi. Həmin gündən etibarən Sevgililər Gününün qeyd olunduğu bildirilir.

## Niyə sevgini ifadə etmək üçün xüsusi bir günü gözləmək lazımdır?

Bəzən tək bir gül, iki xoş söz, diqqət və qayğı da insanı xoşbəxt edir. Bunun üçün xüsusi bahalı hədiyyələr almağa ehtiyac yoxdur. Lakin günümüzdə mənəviyyata dəyər verən çox az insan var. Yəni, bunun an-



lamını hər kəs dərk edə bilməz. İndiki gənclər 51, 101, 1001 qızıl güllü buketlərə, "Iphone 14 pro max" telefonuna, 500 dollarla bəzədilmiş buketlərə, iri göstərişli ayı oyuncaqlara, çox bahalı ətirlərə, güllərlə bəzədilmiş lüks restoranlara və s. üstünlük verirlər. Bilirsiniz, bəlkə də həmin insana bunun heç biri maraqlı deyil. Sadəcə insanların əksəriyyəti camaatın sözü ilə yaşadığı üçün sırf öyünmək üçün bunları qarşı tərəfdən tələb edir.

## Azərbaycanda Sevgililər Günü nə zaman qeyd edilir?

Məlum olduğu üzrə, 30 iyunda İlham və Fərizənin toyu olub. Ölkəmizdə Sevgililər günü dünya ölkələrinin əksəriyyətində olduğu kimi, 14 fevralda deyil, iyun ayının 30-da qeyd edilir. Lakin 14 fevralda qeyd edən cüt-



lüklərin də sayı az deyil. Hətta əksəriyyət 14 fevral qeyd edir desək, yanılmarıq.

Bu tarix İlham və Fərizənin xatirəsinə ithafən qeyd edilir. Bu cütlüyün faciəvi məhəbbət hekayəsi bütün Azərbaycanı dərindən sarsıdıb. İlham və Fərizə 1989-cu ilin 30 iyun tarixində ailə qurublar. 2004-cü ildən isə Azərbaycanda Sevgililər Günü 30 iyun tarixində qeyd edilir.

Ailə quran gənclər ümid və arzu dolu idilər. Amma 1990-cı ilin gəlişi cavanlara bədbəxtlik gətirdi. Yanvar ayının 19-dan 20-nə keçən gecə sovet tanklarının Bakıya girdiyi an İlham hadisələrin şahidi oldu. Bu şahidlik onu şəhidlik zirvəsinə qaldırdı. Həyat yoldaşının öldüyünü eşidən Fərizə onsuz həyat-



dan imtina etdi. İntihara cəhd edən Fərizəyə mane oldular, ilk cəhdinin boşa çıxmasına baxmayaraq, o, fikrindən dönmədi. O, sirkə içərək doğmalarına vida məktubu yazıb, İlhamsız yaşaya bilməyəcəyini bildirdi. Məktubunu sona çatdıra bilməyən Fərizə bətnindəki körpəsi ilə əbədiyyətə qovuşdu.

İlham və Fərizənin faciəvi talelərinə baxmayaraq, Azərbaycanda Sevgililər Günü onların nikaha daxil olduqları tarixdə qeyd edilir.

## Mənəvi cəhətdən dəyərli olan hansı maraqlı hədiyyələri hazırlamaq olar?

1) Evdən boş bir banka götürüb onun içərisinə sevdiyinizin oxuyub sevinməsi üçün kiçik notlar yaza bilərsiniz. Bu not sayı 10 da ola bilər, 100 də. Hətta bunu rəngli kağızlarla etsəniz, daha maraqlı və ürəkaçan alınar.

2) Bir az bacarıqlısınızsa, rəsm çəkmək yaxşı fikir ola bilər. Portret və ya karikatura istəyir, amma heç bir bacarığım yoxdur deyirsinizsə, şəkilləri ilə yarada biləcəyiniz gözəl bir kolaj işləyə bilərsiniz.

3) Əl işi olan toxuma ən gözəl mənəvi hədiyyələr sırasındadır. Qadınlar belə işləri daha yaxşı bacarır. Bu, onun üşüməsini istəmədiyiniz anlamına gəlir.

4) Ona əllərinizlə hazırladığınız stəkan hədiyyə edə bilərsiniz. Bir ədəd sadə ağ rəng stəkan alıb onu istədiyiniz rəngə boyaya bilər və üzərinə fərqli yazılar yaza bilərsiniz.



Yəni, hər şeyi maddiyyatla əlaqələndirmək olmaz. Bəzən mənəvi hədiyyələr də insanları çox xoşbəxt edir. Məsələn, insan var ki, onun üçün içinə məktub yazıb şəkillərinizi düzdüyünüz dəftər, 1001 dollarlı buketdən daha daha dəyərlidir. Çünki onun üzərində xüsusi əmək-əziyyət var.

**Yazıçı kulturoloq, analitik ekspert Aydın Xan Əbilov:** "Əslində, Müqəddəs Valentin Günü çox kədərli bir hadisəyə həsr olunub. Biz isə bu günü Sevgililər Günü adlandırırıq. Belə ki, ingilis şairi Şekspirin məşhur bir əsəri var. Bu əsərin adı "Romeo və Juliet"dir. Həmin əsərin mövzusu Sevgililər Günü ilə bağlıdır. Yəni, hər ikisinin mövzusu



eyni problemlə əlaqədardır.

Belə bir maraqlı bayramı kommersiyalaşdırmaq yalnız və yalnız kapitalizm dövrünə təsadüf edir. Bilirsiniz ki, bir çox işbazlar bununla bağlı çox böyük marketinq və bazarlaşma kampaniyaları aparırlar. Sevgililər Günü münasibətilə güzəştlər, kredit verilməsi, hədiyyələrin satışı və s. bura aiddir. Onlar şəxsi mənafeləri üçün bu bayramdan faydalanaraq çoxlu pul qazamaq istəyirlər.

Bu bayram sözsüz ki, gənclərə və özünü gənc hesab edən şəxslərə aiddir. Bu günü daha çox kommersiyalaşdırmaq, pul qazanmaq qəribə qarşılansa da əslində normaldır. Digər bayramlarda da bu hallar baş verir. Lakin hər şey əndazəsində daha gözəldir.

Fikir versəniz, xarici ölkələrdə bu gün münasibətilə yalnız çiçək, gül və s. sadə hədiyyələr seçilir. Lakin Azərbaycanda lazım oldu-olmadı aşırı addımlar atmağa çalışırıq. Hətta ölkəmizdə Sevgililər Günü yarına avtomobil hədiyyə edənlərin sayı da az deyil. Həmin münasibətlər korlananda, nigahlar pozulanda həmin o var-dövlət və bağışlanan hədiyyələr üstündə boğuşmalar başlayır. Ona görə də insanlar yaxşı olar ki, bu gün münasibətilə biri-birinə kreativ hədiyyələr hazırlasınlar. Məsələn, sevgilinizlə dünyanın, yaxud ölkənin maraqlı bir ölkəsinə gedin, yaxud uşaqlar və qocalar evini ziyarət edin. Sevgililər günündə hədiyyələşmənin formatını dəyişmək lazımdır. İnanıram ki, insanlar bir gün mənəvi hədiyyələrə daha çox önəm verəcək".

***Ayşən Vəli***







# Türk toponimlərinə təcavüz

## Prezident İlham Əliyev: "İndiki Ermənistanın bütün ərazisindəki toponimlərin demək olar ki, mütləq əksəriyyəti Azərbaycan mənşəlidir"

Cənubi Qafqazda qədim türklərə məxsus toponimlərin yaranmasından min illərlə zaman keçir. Qədim türklər yaşadıqları ərazinin coğrafi relyefi, tarixi şəxsiyyətlərinin və tayfaların adları ilə adlandırmışlar. Tarixin dönəmlərində silah gücünə boşaldılmış azərbaycanlı yaşayış məntəqələrində Türkiyədən qaçıb gələn erməni qaçqınlarının məskunlaşdırılması ilə yanaşı, həmin yaşayış məntəqələrinin adları da dəyişdirilib. İndiki Ermənistan ermənilərin yox, türk mənşəli tayfaların yaşadığı ərazi olub. Ermənistanda Azərbaycan toponimlərinə qarşı siyasi kampaniya ardıcıl və məqsədyönlü şəkildə həyata keçirilib. 1826-1828-ci ilə qədər bu ərazidəki yaşayış məntəqələrinin hamısının adı türk mənşəli olmuşdur. Tarixi mənbələrə əsasən, 1828-1830-cu illərdə Cənubi Qafqaza İrandan 40 min, Türkiyədən 84 min erməni köçürülüb. 1893-1895-ci illərdə isə indiki Ermənistana 900 min erməni köçüb. Ermənilər türk mənşəli toponimləri dəyişdirmək məqsədi ilə bəzi adları ”erməni dilinə” tərcümə ediblər, bəzilərini isə yeni erməni adları ilə əvəzləyiblər. Bu tarixin müxtəlif dönəmlərində baş verib. Azərbaycan xalqı öz tarixinin hər bir səhifəsinə gözəl bələddir. Baş verən proseslər zaman və məkan anlayışları çərçivəsində təhlil edilərək, elmi fakt və dəlillərlə mükəmməl bir tarixi ortaya qoymuş olur. Azərbaycan Prezident İlham Əliyev çıxışlarının birində belə demişdir: ”Bu tarixi hər kəs bilməlidir, xüsusilə gənclər bilməlidir, olduğu kimi bilməlidir. İndiki Ermənistan Respublikasının ərazisi qədim Azərbaycan torpağıdır. Bu, faktdır, tarixi faktdır. Heç uzağa getmək lazım deyil. XX əsrin əvvəllərində çar Rusiyası tərəfindən dərc edilmiş xəritələrə baxmaq kifayətdir. Hər kəs görər ki, indiki Ermənistanın bütün ərazisindəki toponimlərin demək olar ki, mütləq əksəriyyəti Azərbaycan mənşəlidir”.

### QARAMƏHƏMMƏD KƏNDİNİN ADI DƏYİŞDİRİLƏRƏK ALEKSANDROVKA QOYULDU

Ermənilərin Azərbaycana qarşı işğalçılıq siyasəti iki əsrlik tarixi dövrü əhatə edir ki, bu zaman məsafəsində təcavüzkar siyasətlərini davam etdiriblər. Azərbaycan toponomlərinə qarşı təcavüzkar siyasətlərini də reallaşdırıblar. Mənbələrə istinadən deyə bilərik ki, ilk addəyişdirmə 1801-ci ildə baş vermiş, türk mənşəli adlar rus mənşəli toponimlərlə əvəz edilmişdir. Belə ki, ilk dəyişdirilən ad Cəlaloğlu rayonundakı (Stepanovan rayonu) Qaraməhəmməd kəndinin adının dəyişdirilərək Aleksandrovka qoyulması ilə başlayıb.

Tarixçi alimlərin qənaətinə görə, toponimlərimizə qarşı soyqırım 4 mərhələdə həyata keçirilib. İlk mərhələ Türkmənçay müqaviləsindən sonra başlayır. 1828-1832-ci illər ərzində İrandan və Türkiyənin müxtəlif bölgələrindən ermənilər kütləvi şəkildə Cənubi Qafqaza köçürüldülər. İlk kütləvi köçürülmə prosesi o zaman başladı. Həmin andan etibarən İrəvan və Naxçıvan xanlığı ərazisində yaşayan azərbaycanlıları öz doğma yurd yerlərindən qovmağa başladılar. O dövrdə təbii ki, Ermənistan anlayışı yox idi. Qeyd edək ki, Ermənistan ərazidəki türk mənşəli adların dəyişdirilməsi siyasətinə ”Türkmənçay” sülh müqaviləsindən sonra, XIX əsrin 30-cu illərindən sistemli və məqsədli şəkildə başlanılmışdır. 1850-ci ildə İrəvan quberniyası yaradılan zaman Kəvər yaşayış məntəqəsinin adı dəyişdirilərək Novo-Bayazet adlandırılmış və eyniadlı qəza mərkəzinə çevrilmişdir.

Çar Rusiyası tərəfindən İrəvana köçürülən ermənilər əvvəlcə məskunlaşdıqları kənd, rayon, qəsəbə, dağ-dərə, mahal və digər yerlərin adlarını dəyişərək erməniləşdiriblər. Bu ərazidə olan azərbaycanlı adlarını öz adları ilə əvəzləyiblər. O vaxt Qərbi Azərbaycanın-indiki Ermənistanın 34 rayonunun adı dəyişdirilib.

Tarixin müxtəlif dönəmlərinə nəzər salsaq görərik ki, ermənilərin 1918-20-ci illərdə xalqımızı soyqırıma məruz qoyduqları kimi, qədim tarixi abidələri, binaları yandırır və addəyişməni davam etdirməklə mənəvi soyqırıma məruz qoyurdular. Həmin dövrün materiallarını əks etdirən sənədlərdə qeyd olunur ki, 1918-1920-ci illərdə Qərbi Azərbaycan ərazisində türk mənşəli adlar Yuxarı Ağdam - Qanzakar (İcevan), Tamamlı - Burastan (Artaşat) və s. erməni mənşəli sözlərlə əvəzləndi. 1924-cü ildən aparılan addəyişdirmə prosesi nəticəsində Gümrü Leninakan adlandırıldı. Sonra Böyük Qarakilsə Kirovakan oldu. 1924-1930-cu illər ərzində Ermənistanda türk mənşəli 80 toponim dəyişdirilmişdir.

### 29 RAYONDA 72 TÜRK TOPONİMİ DƏYİŞDİRİLƏRƏK MƏNƏVİ SOYQIRIMI QURBANI OLUB

Toponimlərin dəyişdirilməsinə səbəb kimi Ermənistan SSR-nin rəsmi qərarı göstərilirdi. Rəsmi qərarda qeyd olunurdu ki, Ermənistandakı yer adları dini məna daşıdığı, keçmişin feodal ünsürlərini özündə əks etdiriyinə görə dəyişdirilməlidir. Təbii ki, Ermənistandakı türk toponimlərinin dəyişdirilməsinə əsas səbəb bu adların türk mənşəli olması idi.

Toponimlərin dəyişdirilməsi prosesi İkinci Dünya müharibəsindən sonra daha da sürətləndi. 1946-1948-ci illərdə Yaxın Şərqdən, Şərqi Avropa və Amerikadan Ermənistana köçən ermənilərin sayının artması, eləcə də qeyd olunan illərdə təqribən 90 000 erməninin Qərbi Azərbaycana köçürülməsi buna səbəb idi. Tarixçi alimlərin qənaətinə əsasən, toponimlərin dəyişdirilməsinin digər səbəbi Ermənistan ərazisindən azərbaycanlıların kütləvi şəkildə deportasiyası idi. Bu qərara əsasən, 1948-ci ildə 10 000, 1949-cu ildə 40 000, 1950-ci ildə 50 000 azərbaycanlı Ermənistandan köçürüldü. Vurğulayaq ki, Ermənistan SSRİ Ali Soveti Rəyasət Heyətinin ilk fərmanı ilə 29 rayonda 72 türk toponimi dəyişdirilərək mənəvi soyqırım qurbanı olub.

Zaman-zaman türk mənşəli toponimlər təcavüzə məruz qalmışdır. Adı dəyişdirilən rayonlardan biri də Basarkeçər rayonu olub. Basarkeçər rayonu 1930-cu il sentyabrın 9-da yaradılıb. 1969-cu il iyunun 11-nə kimi Basarkeçər, həmin tarixdən sonra isə Vardenis rayonu adlandırılıb. Rayon ərazisində irili-xırdalı çoxlu dağ zirvələri və Göyçə gölünə tökülən çaylar vardır. Onlardan ən böyüyü Məzrə (dəyişdirilmş adı Masrik) çayıdır. Çaxırlı yaylası da bu rayon ərazisindədir. Tarixi mənbələrdə göstərilir ki, 1948-1951-ci illərdə rayon əhalisinin bir qismi Azərbaycan ərazisinə köçürülmüşdür. Təkcə Zod kəndindən 100 ailə Xanlar (indiki Göygöl rayonu) rayonunda məskunlaşdırılmışdır. Bu vaxt Basarkeçərin 37 kəndində 30-u azərbaycanlı, 5-i erməni, 2-si isə qarışıq kəndlər idi.

Tarixçi alimlərin fikirlərinə istinadən deyə bilərik ki, bir çox hallarda yeni ad tapa bilmədiklərindən Azərbaycan toponimləri erməni ”dil”inə tərcümə olunmuş, ya da bir-iki hərf dəyişdirilmişdir. Dəmirçi-Darpnik, Ağqala-Berdkunk, Ayrıvənk-Hayravan, Zod-Sotk, Qızıl Bulaq-Xaçaxbyur, Məzrə-Masrik, Qaraqala-Sevaberd, Göykilsə-Kaputan, Oxçaberd-Voxçaberd, Yengicə-Norabats, Xaçaparaq-Xaçpar, Güllüdüz-Vardahovid, Zeytə-Zedeya, Armutlu-Danzud, Almalı-Xizorud, Nəzrvan-Kazaravan, Ağbulaq-Axpurak, Bəriabad-Barapet, Ağkilisə-Cermakavan, Acıbac-Acabac, Qovşud-Kavçut, Kərd-Kard, Ağudi-Aqitu, Aravus-Aravis, Bayandur-Baqatur, Yeni kənd-Nor-Gyuq, Gabut-Kapuyt, Molla Musa-Musakan, Piraqan-Byurakan, Daşqala-Karaberd, Bəzirxana-Dzithankov, Qızıltamur-Vosgevaz, Melikkənd-Melikgyuğ və s. Sovet Ermənistanı ərazisində olan Azərbaycan mənşəli bütün toponimlərin - çayların, dağların, dərələrin, təpələrin, düzənliklərin adları belə dəyişdirilib erməniləşdirilmişdir. İndi Ermənistan adlanan ərazinin toponimlərinin əksəriyyətini türk mənşəli toponimlər təşkil edirdi.

### ”BİZİM DOĞMA TORPAĞIMIZ ZƏNGƏZURDUR, BİZİM DOĞMA TORPAĞIMIZ GÖYÇƏ MAHALIDIR, İRƏVANDIR”

Vurğulamaq yerinə düşər ki, 28 noyabr 1988-ci il tarixdə daşnak terror qrupları Basarkeçər rayonunun Çaxırlı, Qanlı, Kərkibaş, Şişqaya, Zod kəndlərinə basqınlar edərək nəqliyyat vasitəsi olmayan imkansız, əliyalın əhalidən 34 nəfəri döyərək işgəncə ilə qətlə yetirmişlər. Qarda-çovğunda borana düşən qaçqınlardan 12 nəfər isə donvurmadan tələf olub. Basarkeçər rayonunun Daşkənd, Nərimanlı, Ağkilsə, Pəmbək, Qızılvəng, Şişqaya, Zod, Qanlı, Yuxarı Zağalı, Sətənağac, Kəsəmən, Göysu, Dərə, Subatan, Sarıyaqub, Çaxırlı, Zərkənd, Canəhməd, Yarpızlı, Böyük Məzrə, Kiçik Məzrə, Böyük Qaraqoyunlu, Kiçik Qaraqoyunlu, Qoşabulaq, İnəkdağı, Babacan, Kərkibaş, Qayabaşı, Qaraiman, Ağyoxuş, Yuxarı Şorca, Aşağı Şorca, Qırxbulaq, Gödəkbulaq, Tüskülü, Qamışlı, Aşağı Zağalı kimi kəndləri var.

44 günlük Vətən müharibəsi 30 ilə yaxın işğala son qoydu. Bu gün türk mənşəli tarixi adlarımız da özünə qaytarılır. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bildirdiyi kimi, Basarkeçər rayonu Ermənistan ərazisində yaradılıb və orada yaşayanların da mütləq əksəriyyəti azərbaycanlılar olmuşdur. Basarkeçər rayonuna Ermənistanda ”Vardenis rayonu” deyilir. ”Ancaq bu rayonun, bölgənin əsl adı Basarkeçərdir, Göyçə mahalıdır, qədim Azərbaycan torpağıdır”, - deyə Cənab Prezident bildirib: ”Yalnız 1969-cu ilin iyun ayında Ermənistan Basarkeçər rayonunu, onun adını dəyişdirərək ona ”Vardenis” adı qoymuşdur”. Azərbaycan əraziləri işğaldan azad edildikdən sonra 2020-ci ilə qədər Madagiz adlanmış Suqovuşan da öz tarixi adına qovuşdu. Tərtər rayonunun Çaylı kənd inzibati ərazi dairəsində olan Suqovuşan 3 oktyabr 2020-ci il tarixində Qarabağda gedən döyüşlər zamanı Azərbaycan Silahlı Qüvvələri tərəfindən azad edilmişdir. 44 günlük Vətən müharibəsində işğaldan azad edilən bu ərazinin tarixi adı Prezident İlham Əliyev tərəfindən bərpa edilərək Suqovuşan adlandırılmışdır.

Yaxın tariximizə nəzər salsaq, görərik ki, 1988-89-cu ilə qədər azərbaycanlılar yaşamış 16 rayonda 90 türk mənşəli toponimlər dəyişdirilərək erməni adı ilə əvəzləndi. Bu rəsmi statistika Ermənistan prezidentinin fərmanı ilə 1991-ci ili əks etdirir. XX əsrin əvvəllərində Qərbi Azərbaycanda 2310 coğrafi addan 2000-ə qədəri türk mənşəli idi. Bu gün Azərbaycan öz tarixi torpaqlarına qovuşub. Azərbaycanın tarixi adları yenidən özünə qaytarılır. Azərbaycan tarixi, əzəli torpaqlarına sahib olacaq: ”Biz tarixi unuda, kiminsə siyasi maraqlarının girovuna çevrilə bilmərik”, - deyən Azərbaycan Prezidenti İlham Əliyev qeyd edib ki, gəlsinlər, açsınlar tarixi sənədləri, xəritələri, baxsınlar, sovet hökuməti Zəngəzuru nə vaxt Azərbaycandan qoparıb Ermənistana verib: ”Bu, yaxın tarixdir - 101 il bundan əvvəl. Yəni, biz deyək ki, bu, olmayıb? Nəyə görə? Biz həqiqəti deyirik. Bizim dədə-baba torpağımızdır: bütün Zəngəzur - Şərqi və Qərbi Zəngəzur. Əgər Şərqi Zəngəzur varsa, deməli Qərbi Zəngəzur da var. Bəli, Qərbi Zəngəzur bizim dədə-baba torpağımızdır... Bizim doğma torpağımız Zəngəzurdur, bizim doğma torpağımız Göyçə mahalıdır, İrəvandır. Biz qayıdacağıq, əlbəttə...” O zaman toponimlərimiz də tarixi adlarına qovuşacaqlar.

***Zümrüd BAYRAMOVA***

# “Rusiya nəhayət ki, əsl müttəfiqlərinin kim olduğunu gördü”

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi” istiqaməti çərçivəsində hazırlanıb*

"Rusiyanın açıq-aşkar azərbaycanpərəst mövqe tutması bu məsələnin həllini yaxınlaşdırır. Nizamlanma Ermənistanı öz öhdəliklərini yerinə yetirməyə məcbur etməklə həyata keçiriləcək"



Rusiya Beynəlxalq Məsələlər Şurasının eksperti Aleksey Naumov ”Moskva-Baku” portalına müsahibəsində Sergey Lavrovun bəyanatlarına, Ermənistanın siyasəti və Ermənistan-Azərbaycan prosesində Rusiyanın İravana necə davranacağına, həmçinin İran və Türkiyə faktorları haqda danışıb. Müsahibəni oxucularımıza təqdim edirik.

### Sergey Lavrovun Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı ilə bağlı bəyanatı haqqında

- Məncə, Sergey Lavrovun açıqlaması Rusiya siyasətində əsaslı dönüşdən xəbər verir. Bu dönüş çox dik deyil, lakin əhəmiyyətlidir. Ermənistanın Rusiyaya iddialar irəli sürməsi, Ermənistan-Azərbaycan nizamlanmasında yeni müttəfiqlər, vasitəçilər axtarması fonunda Moskva Azərbaycanın Rusiya ilə əməkdaşlıq xəttinə, onunla müttəfiqliyə sadiq qaldığını görür. Ötən ilin fevralında Rusiya və Azərbaycan liderləri tərəfindən imzalanmış Müttəfiq Əməkdaşlıq Bəyannaməsi praktiki baxımdan Rusiyanın Azərbaycanla münasibətlərini ən yüksək səviyyəyə çatdırır. Və artıq heç kim deyə bilməz ki, burada Ermənistan Rusiyanın müttəfiqidir və Moskva ona nəsə borcludur, çünki Rusiya Federasiyası öz milli maraqlarına əsaslanaraq, hazırda Azərbaycan Respublikası ilə ikitərəfli münasibətləri gücləndirir.

Rusiya və Azərbaycan bu gün həqiqətən də müttəfiqdirlər, birgə hərəkət edən ölkələrdir, dövlətlərdir. Eyni zamanda, bizi Qərbin Moskva və Bakıya ümumi münasibəti birləşdirir.

Rusiya indi görür ki, çətin anlarda kim dost ölkədir, hansı ölkə ilə əməkdaşlıq etmək, hansına arxalanmaq olar. Siyasi arenada qarşılıqlı hörmətə əsaslanan, qarşılıqlı faydalı əməkdaşlıq mövcuddur, son illərdə də həmişə olduğu kimi, Azərbaycan üzərindən Rusiyaya paralel idxal həyata keçirilir. Rusiya nəhayət ki, əsl müttəfiqlərinin kim olduğunu anladı. Artıq vaxtdır. Mən həmişə bu mövqenin, Azərbaycanla bu yaxınlaşma xəttinin tərəfdarı olmuşam və bu xəttin qalib gəldiyini görməkdən məmnunam.

Rusiya həmişə Azərbaycanın ərazi bütövlüyünü tanıyıb, Qarabağı həmişə onun ərazisi hesab edib. Bu, dəfələrlə bəyan edilib və beynəlxalq hüquqda bu məsələdə birmənalı şərh yoxdur. Ukrayna münaqişəsi başlayandan sonra bütövlükdə dünyada vəziyyət dəyişib. Xüsusi əməliyyat başlayandan Rusiya 2022-ci ilə qədər malik olduğu əlaqələri güc baxımından sınaqdan keçirir və görür ki, hansı ölkələrlə əməkdaşlıq edə bilər, hansı ölkələr Rusiyadan üstünlük əldə etmək üçün istifadə edir və s. Düşünürəm ki, gələcəkdə daha çox oxşar bəyanatlar görəcəyik. İnanıram ki, biz gələcəkdə Ermənistan-Azərbaycan nizamlanması məsələsində müsbət dinamika görəcəyik.

Rusiyanın açıq-aşkar azərbaycanpərəst mövqe tutması bu məsələnin həllini yaxınlaşdırır və bunun alternativi yoxdur. Vəziyyətin həlli Qarabağın qalan hissəsinin Bakının nəzarətinə keçməsini və yerli erməni əhalisinin ya Azərbaycana tərkibinə keçməsini, ya da Qarabağı tərk etməsini nəzərdə tutur.

### İran və Azərbaycan arasında böhranın baş verməsi haqqında

- Regionda İran faktoru çoxşaxəli və maraqlıdır. Rusiya ilə İran arasında münasibətlər yaxşılaşır. Eyni zamanda, ənənəvi rəqabət, regionda rəqabət və İranın Ermənistana dəstəyi də daxil olmaqla, böhranların mərkəzində dayanan Azərbaycan və İran İslam Respublikası arasında münasibətlər son il yarım ərzində ən yaxşı dövrlərdən keçməyib. Amma düşünürəm ki, bu, sağlam rəqabətdir. Aydındır ki, Rusiya İranla əməkdaşlıq qurmaqla yanaşı, İranın maraqlarını öz milli maraqlarına ziyan vuraraq müdafiə edəcək ölkə deyil. Deyə bilmərik ki, İran Azərbaycandan daha çox Rusiyaya yaxınlaşır. Bu səhvdir. Və indi Azərbaycanla İran arasında yaranmış vəziyyətə Rusiya heç bir şəkildə müdaxilə etməyəcək. Tərəflər vasitəçilik etməyimizi istəmədikləri halda.

Biz Ermənistan-Azərbaycan münaqişəsinin həlli istiqamətində hərəkəti görürük, eyni zamanda etirazlarla və digər daxili çətinliklərlə üzləşən İranda qeyri-sabitliyin artdığını görürük. Əsas odur ki, İrandakı vəziyyət regional qeyri-sabitliyin katalizatoruna çevrilməsin. Cənubi Qafqaz regionunun sabitliyə, əminamanlığa və sülhə çox ehtiyacı var. Çox uzun müddətdir ki, region münaqişə, mübahisə, müharibə şəraitində yaşayır və biz istəməzdik ki, bu region yenidən qeyri-sabitlik meydanına çevrilsin, hansı ki, İrandakı vəziyyət onu təhdid edir.

İran daxilində vəziyyətin sabitliyinin pozulması fonunda biz başa düşürük ki, rəsmi Tehran, görünür, nəzarət etməli olduğu hər şeyə həmişə nəzarət edə bilməz. Azərbaycanın Tehrandakı səfirliyində baş verən terror aktı isə bunu nümayiş etdirir. Düşünürəm ki, Azərbaycan və İran liderləri regionda sabitliyin pozulmasının qarşısını almaq üçün vəziyyəti tənzimləməyə cəhd edəcəklər. Görünən odur ki, İranın indi Azərbaycanla rəqabətə girməsinə baxmayaraq, hər hansı antiazərbaycan hərəkatı aktivləşdirməyə gücü və niyyəti, imkanları yoxdur. Düşünürəm ki, sonda İran Ermənistan-Azərbaycan probleminin yekun həllində nəyisə bəyənməsə belə, nizamlanmanı qəbul etmək məcburiyyətində qalacaq, çünki bu, beynəlxalq hüquqa və qanuna uyğun ədalətə əsaslanır. Düşünürəm ki, Qarabağ münaqişəsinin həlli, Cənubi Qafqazda sabitlik üçün tarixi şərait formalaşıb.

### İrəvanın təxribatçı əməlləri kontekstində Rusiya-Ermənistan münasibətlərinin perspektivləri haqqında

- Hesab edirəm ki, Moskva Nikol Paşinyanla hansısa substantiv danışıqların aparılmasının mümkünlüyü ilə bağlı illüziyanı dağıtdı. Paşinyan məqsədlərinə çatmaq, siyasətini aparmaq üçün hər fürsətdən istifadə edən siyasətçidir. O, açıq-aydın nə rusiyayönlü siyasətçidir, nə də qərbyönlü siyasətçidir. Ermənistanın baş naziri daha çox fürsətçi siyasətçidir, ona verilən hər fürsətdən istifadə edir, xüsusilə də hansısa aydın, yaxşı balanslaşdırılmış xarici siyasət xəttinə arxalanmır. Moskva Ermənistan-Azərbaycan münasibətlərinin normallaşmasına dair razılaşmalara əməl etmək və sonda bütün torpaqlarını Azərbaycana qaytarmaq üçün Ermənistana təzyiqlərini davam etdirəcək.

Əgər əvvəllər Moskvanın İrəvana təzyiqləri daha çox gizli, ”ağ əlcəklərdə” idisə, indi bu xəttin dəyişdiyini görürük. Mənə elə gəlir ki, Moskva Ermənistanın qeyri-konstruktiv davranışından, ona vaxt və şans verməkdən yorulub. Xatırlatmaq istərdim ki, Azərbaycan və Ermənistanın razılığı ilə Qarabağda yerləşdirilən Rusiyanın sülhməramlı missiyası da Qarabağ ermənilərinə düşünmək üçün vaxt verməyə hesablanmışdı, Qarabağda yaşayan azərbaycanlıların 90-cı illərdə öz ərazilərindən, yurdlarından qovulduqlarında, qırğın prosesini müşayiət edən erməni separatçıları onları xatırladığımız kimi qəbul etməmişdilər.

Ermənistan ona verilən vaxtdan sui-istifadə edir, deyəsən, konstruktiv istiqamətdə getmir, ona görə də Rusiyanın ona təzyiqi artacaq. Ümid edirəm ki, 2023-cü ildə vəziyyət nəhayət öz həllini tapacaq.

### Qərbin Cənubi Qafqaza nüfuz etməsinə necə müqavimət göstərmək haqqında

- Ermənistan bu gün Qərbin maraqlarının dirijorudur. Rusiya və Azərbaycan yaxşı başa düşürlər ki, Qərb onlar üçün müttəfiq deyil və heç vaxt Rusiya və Azərbaycanla hörmətli əsasda strateji qarşılıqlı fəaliyyət göstərməyəcək. Türkiyə ilə də olmayacaq. Biz görürük ki, Aİ ilə Türkiyə arasındakı münasibət Aİnin qarşılığında heç nə vermədən təsir əldə etmək cəhdinə bənzəyir. Eynilə, lakin daha rüsvayçı dərəcədə Avropa İttifaqı Azərbaycan və Rusiya ilə münasibətlər qurur. Ona görə də Ermənistanla işləmək lazımdır ki, Qərb qüvvələri onun vasitəsilə Qafqaza soxulmasın.

### Rusiya Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması strategiyasını dəyişməlidirmi?

- Nizamlanma strategiyası həm Azərbaycan hakimiyyəti, həm də Ermənistan hakimiyyəti tərəfindən xoş niyyətin olmasını nəzərdə tutur. Sülhməramlılar tərəfləri öhdəliklərini yerinə yetirməyə məcbur edə bilməzlər. Onlar toqquşmaların qarşısını almaq üçün ərazidədirlər. Aydın məsələdir ki, münaqişənin həlli siyasi xarakter daşımalıdır. Amma faktiki olaraq Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması məsələsində irəliləyişə Ermənistanın qeyri-konstruktiv yanaşması mane olur. Rusiya bundan yorulub və normallaşma məsələsində mövqeyi korrektə edilir. Yəni, nizamlanma strategiyası artıq dəyişir, çünki bütün tərəflərdən konstruktiv qarşılıqlı fəaliyyət gözlədiyimiz xətt uğurlu alınmayıb. Biz Azərbaycandan konstruktiv qarşılıqlı əlaqə gördük, Ermənistandan isə görmədik. Ümid edirəm ki, bu tezliklə öz bəhrəsini verəcək. Ermənistanın heç nə ilə razılaşmaması o demək deyil ki, nizamlanma mümkün deyil. Nizamlanma Ermənistanı öz öhdəliklərini yerinə yetirməyə məcbur etməklə həyata keçiriləcək.

### Ermənistan parlamenti sədrinin KTMT missiyasının Ermənistan-Azərbaycan sərhədində qeyri-mümkün olması, çünki struktura ”öz maraqlarını güdən dövlətlər” daxil olmamalıdır haqda bəyanatına münasibət

- KTMT ilə bağlı bəyanat, sadəcə, İrəvanın destruktiv kursunun nümayişidir. Quruluşda öz maraqlarını güdən dövlətlərin olması barədə bəyanat ”heyrətləndirici söhbətdir...” Ola bilsin ki, Ermənistanın fikrincə, dövlətlər öz maraqlarını güdməməlidirlər... Aydın məsələdir ki, Ermənistanın öz maraqlarını təmin etmək üçün prosesi ləngitmək imkanları getdikcə azalır. Ermənistan-Azərbaycan nizamlanmasına dair razılaşmaların həyata keçirilməsini təmin edilir və bu, davam etdiriləcək.

### Rusiya ilə Qərb arasında mövcud münaqişə fonunda Cənubi Qafqazdakı vəziyyət və Moskva ilə Ankara arasındakı münasibətlərdə Türkiyədə qarşıdan gələn prezident seçkilərinin rolu haqqında

- Prezident Ərdoğanın yeni müddətə seçilməsi və ya seçilməməsinin Ermənistan-Azərbaycan nizamlanması problemlərinə ciddi təsir edəcəyini düşünmürəm. Biz başa düşürük ki, Zaqafqaziyada əsas aktorlar Azərbaycan və Ermənistandır. Burada Türkiyənin rolu dolayıdır. Sülhməramlı kontingentin ərazidə mövcudluğunu və Azərbaycan və Ermənistanla münasibətləri nəzərə alsaq, Rusiya daha mühüm rol oynayır. Rusiya-Türkiyə münasibətlərinə gəlincə, təbii ki, burada çox şey prezident Ərdoğanın şəxsiyyəti, onun qərbə təsirində olmaq istəməməsi ilə bağlıdır. Hesab edirəm ki, türk xalqı indiki şəraitdə Qərbdən daha çox asılılıq kursunu dəstəkləməyəcək. Amerikanın icazəsizliyindən yorğunluğun təsiri təbii ki, Türkiyədə də hiss olunur. Prezident Ərdoğan güclü, nüfuzlu, dünya səhnəsində mühüm siyasətçidir. Lakin son nəticədə o, tarixi prosesləri indi dəyişməkdənsə, onun gedişatını izləyir. Amma Putin və Ərdoğanın, xüsusən indiki beynəlxalq vəziyyətdə müsbət münasibəti özünü hiss etdirir. Və bu mühüm amildir. O cümlədən Cənubi Qafqazdakı vəziyyət üçün də.

***Tərcümə - Elçin Bayramlı***

SƏS
14 fevral
2023-cü il

## Klopp qərarını verdi: "Heç yerə getməyəcəyəm"



"Liverpul"un baş məşqçisi Yurgen Klopp klubdakı gələcəyi ilə bağlı qərarını verib. Qol.az Britaniya mətbuatına istinadən xəbər verir ki, 55 yaşlı mütəxəssis bu barədə öz açıqlamasında danışıb. Bir müddətdir ki, komandanın uğursuz nəticələrinə görə Kloppun "Liverpul"u tərk edəcəyi barədə xəbərlər yayılıb. Lakin almaniyalı çalışdırıcı açıqlamasında "mersisaydlılar"dan getməyəcəyini deyib:

"İnsanların belə düşünməsini anlayıram. Amma heç yerə getməyəcəyəm, gedə bilmərəm. Üzərimdə həddindən artıq çox məsuliyyət var. Hər şeyi yenidən qaydasına salmaq istəyirəm. Çətin bir dövrdən keçirik. Bu çətin zamanlarda "Liverpul"un çox özəl olduğunu göstərməliyik. Burada qalmaq üçün 100 faiz qərarlıyam. Qalib gəlsək, özümü uğurun bir parçası kimi hiss edərəm. Amma məğlub olsaq, məsuliyyəti 100 faiz öz üzərimə götürürəm".

Qeyd edək ki, Klopp 2015-ci ildən "Liverpul"un baş məşqçisidir. Onun komandası bu mövsüm Premyer Liqada çıxdığı 20 matçdan 8-də qalib gəlib, 5-də heç-heçə edib, 7 dəfə isə uduzub. "Liverpul" hazırda turnir cədvəlində 29 xalla 10-cudur.

# İşəgötürən işçini hansı halda işdən çıxara bilər

VƏKİL AÇIQLADI







"Sualınıza cavab olaraq bildirirəm ki, qanunvericilik buna yol vermir. Əmək müqaviləsinə dəyişikliklər yalnız tərəflərin razılığı ilə edilir. Əmək müqaviləsi iki formada- müddətsiz və ya müddətli bağlanılır. Müddətli əmək müqaviləsi tərəflərin razılaşdığı müddətə bağlanılır. Əmək müqaviləsində onun hansı müddətə bağlanması göstərilməmişdirsə, həmin müqavilə müddətsiz bağlanmış hesab edilir. Müddəti müəyyən edilmədən bağlanmış əmək müqaviləsi hər iki tərəfin razılığı olmadan birtərəfli qaydada müddətli əmək müqaviləsi ilə əvəz edilə bilməz. Hətta müddətli əmək müqaviləsi fasiləsiz olaraq 5 ildən artıq müddətə davam edərsə, müddətsiz əmək müqaviləsi hesab edilir. Yəni, əmək qanunvericiliyi işəgötürənə birtərəfli qaydada müddətsiz əmək müqaviləsini müddətli əmək müqaviləsi ilə əvəz edərək müddətin bitməsi əsası ilə işçini işdən çıxarmağı qadağan edir". Bu sözləri SİA-ya açıqlamasında vəkil Turan Abdullazadə deyib.

Onun sözlərinə görə, işçi yalnız Əmək Məcəlləsində göstərilmiş hallarda işdən çıxarıla bilər: "Əmək müqaviləsi işəgötürən tərəfindən aşağıdakı əsaslarla ləğv edilə bilər:

a) müəssisə ləğv edildikdə;

b) işçilərin sayı və ya ştatları ixtisar edildikdə;

c) peşəkarlıq səviyyəsinin, ixtisasının (peşəsinin) kifayət dərəcədə olmadığına görə işçinin tutduğu vəzifəyə uyğun gəlmədiyi barədə səlahiyyətli orqan tərəfindən müvafiq qərar qəbul edildikdə;

ç) işçi özünün əmək funksiyasını və ya əmək müqaviləsi üzrə öhdəliklərini yerinə yetirmədikdə, yaxud bu Məcəllənin 72-ci maddəsində sadalanan hallarda əmək vəzifələrini kobud şəkildə pozduqda;

d) sınaq müddəti ərzində işçi özünü doğrultmadıqda;

e) dövlət büdcəsindən maliyyələşən müəssisənin işçisi çalışmanın yaş həddinə çatdıqda".

**Ayşən Vəli**

## DİQQƏT: Qadınla kişinin dostluğu mümkündür?

"İllərdir ki, qadınla kişi arasında dostluğun mümkün olub-olmaması barədə suallar insanları dərindən düşündürür. Lakin təəssüf ki, insanlarda bu məsələ ilə bağlı sağlam düşüncə yoxdur. Əgər bir qadının oğlan dostu və ya bir kişinin qadın dostu varsa, deməli, onlar arasında nəsə var. Loru dildə desək, həmin adamın "adı çıxır". Bu sözləri SİA-ya açıqlamasında psixoloq Aytən Ələkbərova deyib.

Onun sözlərinə görə, əslində, qadın və kişi dostluğuna mane olan bu cür düşüncələrdir: "Yoxsa ki qarşı cinslər arasında rahatlıqla dostluq münasibəti qurula bilər. Mənim də ətrafımda, hətta doğmam olmasa belə, ürəklə qardaş deyə biləcəyim kişi dostlar var. Çünki biz sağlam düşüncəyə sahibik. Amma sağlam dostluq münasibəti qura bilənlər ən uzağı 20% təşkil edir. 100-ün 20%-i isə yox deməkdir. Çox



insan dost adı altında qarşı tərəfə daha fərqli duyğular bəsləyir. Hətta onun haqqında danışanda belə daxilən göz yaşı axıdır. Bəlkə də həmin insan, sadəcə, dostunun ağlına, davranışlarına aşiq olur. Onunla heç bir cinsi əlaqə haqqında düşünmür. Çünki onların arasında müəyyən qədər məsafə olur. Lakin qadın və kişi olaraq dostlar daha yaxın bir münasibətdə olsalar, onda getdikcə onlar arasında söz-söhbətlər yaranmağa başlayacaq".

**Ləman Əlizadə**

# Boşanan zaman aliment necə ödənilir?

QURUMDAN AÇIQLAMA

"Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 76-cı maddəsinə əsasən uşaqlar üçün məhkəmə qaydasında tutulan alimentin miqdarı müəyyən edilmişdir. Belə ki, aliment ödənilməsi barədə razılıq olmadıqda uşaqlar üçün onların valideynlərindən məhkəmə tərəfindən hər ay 1 uşağa görə - qazancın və (və ya) valideynlərin başqa gəlirlərinin dörddə bir hissəsi, 2 uşağa görə üçdə bir, 3 və daha çox uşağa görə isə qazancın (başqa gəlirlərin) yarısı miqdarında aliment tutulur". Bu barədə SİA-nın sorğusuna Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Qurumdan aldığımız məlumata əsasən, bu payların miqdarı məhkəmə tərəfindən tərəflərin ailə və maddi vəziyyəti, eləcə də diqqətəlayiq olan başqa hallar nəzərə alınmaqla azaldıla və artırıla bilər.

Aliment ödəməli olan valideynin qazancı (gəliri) qeyri-müntəzəm, dəyişən olarsa, ya qazancın (gəlirin) hamısını və ya bir hissəsini natura və ya xarici valyuta ilə alırsa, yaxud onun qazancı və ya sair gəliri yoxdursa, Ailə Məcəlləsinin 78-ci maddəsinə əsasən digər valideynin xahişi ilə alimentin miqdarı məhkəmə tərəfindən hər ay ödənilməli olan sabit pul məbləğində müəyyən edilə bilər.



Həmçinin alimentin valideynin qazancından (gəlirindən) müəyyən hissə kimi tutulması mümkün olmadığı, çətinlik törətdiyi və tərəflərdən birinin və ya marağının əhəmiyyətli dərəcədə pozulduğu başqa hallarda da alimentin miqdarı sabit pul məbləğində müəyyən oluna bilər.

Qeyd olunmalıdır ki, "Azərbaycan Respublikasında 2023-cü il üçün yaşayış minimumu haqqında" 2022-ci il 9 dekabr tarixli Qanunla cari ildə yaşayış minimumu uşaqlar üçün 220 manat məbləğində müəyyən edilmişdir. Məhkəmələr tərəfindən alimentlə bağlı sabit pul məbləğinin aşağı həddi qeyd olunan Qanuna uyğun müəyyən edilir. Məhkəmə praktikasına əsasən 220 manatdan artıq məbləğdə alimentin tutulması tələbi də irəli sürülür. Bu zaman məhkəmə tərəfindən tərəflərin maddi və ailə vəziyyəti, diqqətəlayiq olan digər hallar nəzərə alınmaqla uşağın əvvəlki təminatının səviyyəsinin mümkün qədər maksimal saxlanması əsas tutulur.

**Banuçiçək Hüseynli**

**Baş redaktor:**
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3600**